№ 16 (1011) 19-25 aprel 2018-ci il

www.iqtisadiyyat.com

# İQTİSADİYYAT

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin andiçmə mərasimi olub




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Milli Məclisdə andiçmə mərasimi keçirilib.

Andiçmə mərasimində Azərbaycanın dövlət rəsmiləri, hökumətin üzvləri, Milli Məclisin deputatları və Prezidentin ailə üzvləri iştirak ediblər.

Prezident İlham Əliyevi müşayiət edən fəxri kortej Azərbaycan Respublikası Prezidentinin andiçmə mərasiminin keçirildiyi Milli Məclisə yola düşdü. Ümumxalq səsverməsi ilə Azərbaycan Respublikasının Prezidenti seçilmiş İlham Heydər oğlu Əliyevin andiçmə mərasimi açıq elan olundu.

Silahlı Qüvvələrin əsgərləri Azərbaycan Respublikasının dövlət bayrağını və Azərbaycan Prezidentinin ştandartını (bayrağını) təntənəli marşın sədaları altında səhnəyə gətirdilər.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev və Konstitusiya Məhkəməsinin hakimləri səhnəyə dəvət olundular.

**Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad ABDULLAYEV çıxış edərək dedi:**

- Hörmətli xanımlar və cənablar.

Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi 2018-ci il 17 aprel tarixli qərarı ilə Azərbaycan Respublikası Prezidenti seçkilərinin yekunlarına dair Mərkəzi Seçki Komissiyasının nəticələrini təsdiq edərək, cənab İlham Heydər oğlu Əliyevi Azərbaycan Respublikasının Prezidenti elan etmişdir.

Azərbaycan Respublikasının Prezidenti seçilmiş cənab İlham Heydər oğlu Əliyev Azərbaycan Respublikası Konstitusiyasının 103-cü maddəsinə uyğun olaraq, Konstitusiya Məhkəməsi hakimlərinin iştirakı ilə andiçməyə dəvət olunur.

Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV əlini Azərbaycan Respublikası Konstitusiyasının üzərinə qoyaraq and içdi:

- Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirərkən Azərbaycan Respublikasının Konstitusiyasına əməl edəcəyimə, dövlətin müstəqilliyini və ərazi bütövlüyünü qoruyacağıma, xalqa ləyaqətlə xidmət edəcəyimə and içirəm!

Azərbaycan Respublikasının dövlət himni səsləndi.

Sonra Prezident müqəddəs Qurani-Şərifə əl basaraq and içdi:

- Əlimi Qurani-Şərifə basaraq and içirəm:

Azərbaycan xalqının əsrlər boyu yaratdığı milli mənəvi dəyərlərə və ənənələrə sadiq qalacağam, onları daim uca tutacağam.

Prezident İlham Əliyev təzim edərək, Azərbaycanın dövlət bayrağını öpdü.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev andiçmə mərasimində nitq söylədi.

Bunun da andiçmə mərasimi başa çatdı.

## Prezident İlham Əliyev Dövlət Bayraq Meydanında olmuş, Şəhidlər Xiyabanını və ulu öndər Heydər Əliyevin məzarını ziyarət etmişdir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 18-də andiçmə mərasimindən sonra ailə üzvləri ilə birlikdə Dövlət Bayrağı Meydanında olmuşlar.

Fəxri qarovul dəstəsinin rəisi Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə raport vermişdir.

Dövlətimizin başçısı əsgərləri salamlamış, Azərbaycan Respublikasının dövlət himni səslənmişdir.

İlham Əliyev ailə üzvləri ilə birlikdə xalqımızın müqəddəs and yeri olan Şəhidlər Xiyabanını ziyarət etmiş, "Əbədi məşəl" abidəsinin önünə əklil qoymuşdur.

İlham Əliyev ailə üzvləri ilə birlikdə Fəxri Xiyabana gəlib müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət edərək xatirəsini ehtiramla yad etmişdir.

Dövlət başçısı ulu öndərin məzarı önünə əklil qoymuş, onun ruhu qarşısında baş əymişdir. Sonra Prezident İlham Əliyev və ailə üzvləri görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın məzarını ziyarət etmiş və üzərinə gül dəstələri qoymuşlar.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin məzarlarının üstünə də gül dəstələri düzmüşlər.




## Prezident İlham Əliyev Ramiz Mehdiyevi "Şöhrət" ordeni ilə təltif etdi



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 16-da Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyevi yubileyi münasibətilə təbrik edib, onu Azərbaycan Respublikasında dövlətçiliyin möhkəmləndirilməsində səmərəli fəaliyyətinə və elmin inkişafında böyük xidmətlərinə görə "Şöhrət" ordeni ilə təltif edib.

Ramiz Mehdiyev bu təltifə və onun fəaliyyətinə verdiyi yüksək qiymətə görə dövlətimizin başçısına minnətdarlığını bildirib. Administrasiya rəhbəri ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş müasir Azərbaycan dövlətçiliyinin daha da möhkəmləndirilməsində Prezident İlham Əliyevin müstəsna xidmətlərini vurğulayıb və qeyd edib ki, məhz dövlət başçısının rəhbərliyi altında Azərbaycanda bütün sahələrdə çox yüksək nailiyyətlər əldə olunub.

O, bir daha dövlət başçısına minnətdarlıq edib.

# 2018-ci il uğurlu və sürətli inkişaf ili olacaqdır

## “Bu gün Azərbaycanın reallıqları onu göstərir ki, biz düzgün yoldayıq”

Bu fikirləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 9-da Nazirlər Kabinetinin 2018-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında demişdir.

Ölkəmizdə bu müddətdə əldə olunan iqtisadi və siyasi uğurları vurğulayan prezident qeyd etmişdir: 2017-ci il sabitləşmə ili olub. Hətta 2017-ci ildə qeyri-neft sektorunun inkişafında çox müsbət nəticələr olmuşdur. Ancaq 2018-ci ilə gəldikdə, şübhəsiz, qeyd edirdim ki, bu, uğurlu və sürətli inkişaf ili olacaqdır.

Birinci rübdə sənaye istehsalı 2 faiz, qeyri-neft sənayesi isə təxminən 10 faiz artmışdır. Bu da ölkəmizdə son illər ərzində aparılan sənayeləşmə siyasətinin nəticəsidir. Qeyri-neft sənayemiz 10 faiz artıb və hesab edirəm ki, bu, rekord göstərici sayıla bilər. Kənd təsərrüfatı 4,2 faiz artıb. Bu artımın tərkibində biz daha çox bitkiçiliyin artımını görürük, 50 faizdən çox artmışdır. Bu da son illər ərzində ənənəvi və digər texniki məhsulların yetişdirilməsi ilə bağlıdır. Bu da çox müsbət göstəricidir.

Ölkə iqtisadiyyatına 3,5 milyard dollar sərmayə qoyulubdur və bu sərmayənin böyük hissəsi xarici sərmayədir. Bu, onu göstərir ki, ölkəmiz xarici investorlar üçün çox cəlbedicidir.

Valyuta ehtiyatlarımız 2,2 milyard dollar artmışdır və hazırda 44,2 milyard dollara bərabərdir. Hesab edirəm, 3 ay ərzində 2 milyard dollardan çox artan valyuta ehtiyatlarımız bir tərəfdən onu göstərir ki, biz ehtiyatlarımızdan çox qənaətlə istifadə edirik, digər tərəfdən, bu, son illər ərzində apardığımız uğurlu neft siyasətinin nəticəsidir. Çünki bu vəsaitin tərkibində keçən il imzalanmış “Azəri-Çıraq-Günəşli” yatağının istismar müddətinin uzadılması ilə bağlı kontraktdan irəli gələn 450 milyon dollar bonus da vardır.

Bizim xarici ticarət dövriyyəmiz 31 faiz artmışdır. Bu da çox gözəl göstəricidir. İxrac isə 37 faiz artmışdır, daha doğrusu, qeyri-neft ixracı. Ümumi ixrac 24 faiz, qeyri-neft ixracı 37 faiz artmışdır. Bu da bizim siyasətimizin bariz nümunəsidir.

İş yerlərinin açılmasına gəldikdə, birinci rübdə 34 min yeni iş yeri yaradılmışdır ki, onlardan 31 mini daimi iş yeridir. Artıq biz 1 milyon 500 min iş yerinin yaradılmasına yaxınlaşırıq. Əgər biz birinci rübün rəqəmlərini də əlavə etsək, 2004-cü ildən bu günə qədər Azərbaycanda təxminən 1 milyon 500 min yeni daimi iş yeri yaradılmışdır.

Bu iqtisadi göstəricilərimiz, əlbəttə ki, bizi çox sevindirir. Onu da əlavə etməliyəm ki, inflyasiya birinci rübdə cəmi 4 faiz olmuşdur. Bu barədə də mən ilin əvvəlində öz fikirlərimi bildirmişdim və qeyd etmişdim ki, əminəm, inflyasiya aşağı səviyyədə olacaq və əhalinin gəlirləri inflyasiyanı qabaqlayacaq. Belə də oldu. Əhalinin gəlirləri təxminən 10 faiz artmışdır, inflyasiya isə cəmi 4 faiz. Bax, budur bizim birinci rübdə əldə edilmiş əsas sosial-iqtisadi göstəricilərimiz.

Dövlət başçısı sosial məsələlərin həllindən danışarkən, qeyd etmişdir ki, birinci rübdə maaşlar və pensiyalar artırılmışdır. Bu məqsədlər üçün dövlət büdcəsindən yüz milyonlarla manat vəsait ayrılmışdır. Bu gün Azərbaycanda tikinti sektorunda böyük canlanma var. Mənzil İnşaatı Dövlət Agentliyinin xətti ilə sosial evlərin tikintisində irəliləyiş var. Ümumiyyətlə, indi özəl sektora, tikinti sektoruna böyük vəsait qoyulur. Təkcə Bakı şəhərində təqribən 150-yə yaxın hündürmərtəbəli binanın tikintisi nəzərdə tutulur.

O, bildirmişdir ki, birinci rübdə bütün infrastruktur layihələri uğurla icra edilib. Cənub Qaz Dəhlizinin yaradılması ilə bağlı çox önəmli addımlar atılıb. Fevral ayında Bakıda 4-cü Məşvərət Şurası keçirilmişdir. Bu Məşvərət Şurasında aparılan müzakirələrin nəticəsində bəyanat qəbul edilmişdir. Ölkəmizdə ümumi inkişaf dinamikasının müsbət olduğunu deyən Prezident İlham Əliyev qeyd etmişdir ki, ölkəmiz dünyada daha çox tanınır və turistlərin sayı getdikcə artır, birinci rübdə 12,5 faiz artmışdır və bu dinamikada ardıcıllıq vardır. Bunun da bir çox səbəbləri var - Azərbaycanda hökm sürən sabitlik, təhlükəsizlik, xalqımızın qonaqpərvərliyi,



tarixi abidələrimiz, infrastruktur, 6 beynəlxalq aeroport, yollar, otellər. Əlbəttə ki, ölkəmizdə keçirilən beynəlxalq tədbirlər Azərbaycanı dünyaya təqdim edir.

Yekun nitqində 2017-ci ilin Azərbaycanda çox dərin iqtisadi islahatlar ili olduğunu deyən Prezident İlham Əliyev bu islahatların davam etdiriləcəyini bildirmiş, demişdir ki, neftin qiyməti bizim üçün əsas amil olmamalıdır və Azərbaycan iqtisadiyyatı elə bir səviyyəyə çatmalıdır ki, neftin istənilən qiyməti bizə böyük təsir etməsin, yalnız ehtiyatlarımızın artırılmasına xidmət göstərsin. Bu ilin birinci rübündə biz 2,2 milyard dollar əlavə vəsait toplamışıq. Dövlət başçısı demişdir: Son vaxtlar vergi sistemində aparılan ciddi islahatlar, sağlamlaşdırma prosesi, artıq biznes dairələri tərəfindən də müsbət qarşılanır və bu istiqamətdə əlavə addımlar atılacaq. Biz dünyada mövcud olan ən müsbət, ən şəffaf praktikanı Azərbaycanda tətbiq etməliyik və bizim bütün maliyyə sistemimiz tam şəffaf mexanizm kimi işləməlidir.

Davos İqtisadi Forumunun hesablamalarında rəqabətqabiliyyətliliyə görə 35-ci yerə yüksəlməyimiz tarixi nailiyyətdir. Biz bu gün dünyanın 35 ən rəqabətqabiliyyətli ölkəsindən biriyik və haqlı olaraq bununla fəxr edirik. Azərbaycan inkişafda olan ölkələr arasında inklüziv inkişaf baxımından üçüncü yerdədir.

Bu kompleks tədbirlər apardığımız siyasətin nəticəsidir. Bu il sahibkarlara dövlət tərəfindən güzəştli şərtlərlə 170 milyon manat vəsait ayrılır. Bu vəsait vaxtilə verilmiş və qaytarılan kreditlər hesabına ayrılır. Yəni, bu, bir daha bizim siyasətimizin uğurlu olduğunu göstərir ki, vaxtilə verilmiş 2 milyard manatdan çox kreditlər indi qayıdır və yeni kreditlərin verilməsinə xidmət göstərir.

Prezident vurğulamışdır ki, yol infrastrukturu, digər infrastruktur, elektrik enerjisi, içməli su, qaz xətləri - görülən bütün bu işlər vətəndaşlara və eyni zamanda, sahibkarlara xidmət göstərir. Ona görə növbəti illərdə qeyri-neft sektorunun inkişafı iqtisadi siyasət istiqamətində əsas prioritet olacaqdır və bu istiqamətdə qəbul edilmiş qərarlar öz gözəl nəticəsini verir. Təkcə bu ilin birinci rübündə 28 investisiya təşviqi sənədi və bu günə qədər cəmi 257 investisiya təşviqi sənədi verilmişdir, 229 sahibkar bu imkanlardan faydalanıb. Bu layihələrə qoyulacaq və artıq qoyulmaqda olan sərmayənin həcmi 2,3 milyard manatdır.

O, demişdir: Azərbaycanda sənaye istehsalı artır. Artıq bu ildən başlayaraq dönüş yaranmış, sənaye istehsalı 2 faiz artmışdır, qeyri-neft sənayesi isə 9,9 faiz, yəni, təxminən 10 faiz. Çox gözəl göstəricidir. Sənaye zonalarının, sənaye parklarının yaradılması artıq gözəl nəticələr veribdir. Bizim bir neçə sənaye zonamız artıq fəaliyyətə başlayıb. Sumqayıt Kimya Sənaye Parkı, Neftçala, Mingəçevir sənaye zonaları artıq fəaliyyətdədir. Keçən ilin sonunda Sumqayıtda 4 müəssisə açılıb, 3 müəssisənin təməli qoyulub. Bu il bizim sənaye inkişafımızı böyük dərəcədə gücləndirəcək iki nəhəng zavod işə düşəcəkdir – “SOCAR Polymer” və azot gübrələri zavodları. Bu zavodların tikintisinə, ümumiyyətlə, 2 milyard dollara yaxın vəsait qoyulub. Hazırda Sumqayıt Kimya Sənaye Parkında 17 rezident var. Ümumiyyətlə, oraya qoyulacaq investisiyaların həcmi 2,8 milyard dollardır. Baxın, əgər biz vaxtilə Sumqayıt Kimya Sənaye Parkını yaratmasaydıq, bu vəsaitlər də qoyulmayacaqdı - 2,8 milyard dollar və investisiya təşviqi sənədində 2,3 milyard manat. Bax, bu vəsaitlər sahibkarların əlində qalacaqdı, yaxud da ki, indi bu vəsaitin, əlbəttə, böyük hissəsi kredit resurslarıdır, o götürülməyəcəkdi, investisiya qoyulmayacaqdı və sənaye inkişafı da mümkün olmayacaqdı.

Biz indi bir çox bölgələrdə oxşar zonalar yaradırıq. Mən onların arasında Mingəçevir Yüngül Sənaye Parkını xüsusi qeyd etmək istəyirəm. Mingəçevir şəhəri böyüyür və əhali artır. Mingəçevirdə iş yerləri ilə bağlı problemlər mövcud idi, bu gün də bu problemlər var. Bu şəhərin ətrafında kənd təsərrüfatı sahələri yoxdur. Ona görə, Mingəçevir ancaq sənaye və turizm şəhəri kimi inkişaf etməlidir.

Bu il sənayemizin inkişafının təzahürü olan Neftçala Sənaye Məhəlləsində biz bu yaxınlarda avtomobil zavodunun açılışını qeyd etmişik. Neftçala Sənaye Məhəlləsinin açılışı keçən il mənim iştirakımla qeyd edildi və bu il ildə 10 min avtomobil istehsal edəcək zavodun açılışı olmuşdur. Bu zavodda 300-dən çox insan işlə təmin ediləcək, həm daxili bazar, həm də xarici bazar üçün rəqabətqabiliyyətli avtomobillər istehsal olunacaq.

Dövlət başçısı bildirmişdir ki, bu il Gəncə avtomobil zavodunda onmininci traktor istehsal edilib. Bu da bizim müştərək əməkdaşlığımızın təzahürüdür. Biz indi fermerləri “Gəncə-Belarus” traktoru ilə təmin edirik. Bu traktorlara çox böyük maraq var.

Prezident kənd təsərrüfatı ilə bağlı qeyd etmişdir ki, burada artım 4,2 faizdir. Bunun böyük hissəsi pambığın istehsalı ilə bağlıdır. Növbəti illərdə ərzaq təhlükəsizliyi məsələlərinə daha böyük diqqət yetirməliyik, xüsusilə taxılçılığa və heyvandarlığa. O, deyib: Biz ənənəvi texniki məhsulların inkişafı ilə bağlı çox ciddi addımlar atmışıq və bir çox müşavirələr keçirilibdir. Taxılçılıq, heyvandarlıq ərzaq təhlükəsizliyini təmin edən əsas sahələrdir. Bilirəm ki, dövlətin dəstəyi ilə və özəl qurumların fəaliyyəti nəticəsində buğda əkini genişlənir, yeni əkin sahələri dövriyyəyə çıxarılır, suvarma işləri təmin edilir. Bu sahəyə çox ciddi diqqət göstərilməlidir ki, biz özümüzü əsas ərzaq məhsulları ilə tam təmin edə bilək. Biz indi ət, süd məhsulları ilə özümüzü təqribən 80-90 faiz səviyyəsində təmin edirik, amma buğda ilə təminat sahəsində bu rəqəm daha aşağıdır. Ona görə növbəti illərdə bu sahəyə və eyni zamanda, quş ətinin istehsalına daha böyük diqqət yetirilməli və investisiyalar qoyulmalıdır.

Kənd təsərrüfatı texnikasının alınması prosesi bundan sonra da davam etdiriləcəkdir. Bu il bu məqsədlər üçün 160 milyon manat nəzərdə tutulur, ən azı 5 min texnika gətirilməlidir. Keçən il 10 min texnika gətirilmişdir, amma bu proses davam etməlidir.

Dövlət başçısı sözünə davam edərək, ixracyönümlü kənd təsərrüfatı sahələri üzrə işlərin bundan sonra da davam etdiriləcəyi barədə danışmış, qeyd etmişdir ki, ilkin məlumatlara görə, bizim kifayət qədər emal gücümüz, yəni şərab zavodlarımız var, amma onların bir çoxu çox zəif işləyir. Yəni, istehsal gücünün 20-30 faizi səviyyəsində işləyir. Vaxtilə sahibkarlar bu zavodları tikiblər, amma səmərəsiz istifadə edirlər. Bu, heç bir məntiqə sığmayan məsələdir. Ona görə bizim indi vəzifəmiz ondan ibarətdir ki, bu şərab zavodlarını sahibkarlar düzgün şəkildə idarə etsinlər.

Son illərdə pambıqçılıqla bağlı görülən işlər barədə danışan Prezident İlham Əliyev qeyd etmişdir ki, burada əsas məsələ işsizliyin aradan qaldırılmasıdır. Pambıqçılıqda 200 minə yaxın insan, yəni bu günə qədər işsiz olan insanlar işlə təmin edilib. Biz satınalma qiymətini artıraraq tarlalarda işləyənlərin rifah halını yaxşılaşdırırıq. Əlbəttə ki, əgər pambıqçılığa belə güclü təkan verilməsəydi, Mingəçevir Yüngül Sənaye Parkının yaradılmasına da ehtiyac qalmayacaqdı. Çünki indi xaricdən pambıq alıb burada emal etmək heç bir iqtisadi səmərəyə uyğun gəlmir. Ona görə, pambıqçılığın inkişafı, ilk növbədə sosial məsələdir, sosial təşəbbüsdür və tədarükçü şirkətlər, fermerlər, yerli icra orqanlarının nümayəndələri bunu bilsinlər ki, pambıqçılıq həm də yerli istehsala təkan verir, ixracı artırır. Biz keçən il 207 min ton pambıq tədarük etmişik, 2015-ci ildə isə cəmi 35 min ton. Mən sonuncu müşavirədə də demişəm, pambıqçılıq bundan sonra da ancaq məhsuldarlığın artırılması hesabına inkişaf etməlidir.

O, demişdir: Son vaxtlar bizim tövsiyəmizi nəzərə alaraq, sahibkarlar zeytunçuluğa böyük diqqət göstərirlər, yeni bağlar salınır və dövlət kömək göstərir, su xətləri çəkir. Bu da çox gözəl ixracyönümlü məhsulumuz olacaq. Dünya bazarlarında zeytun yağına çox böyük tələbat var. Dünyada cəmi bir neçə ölkə bu yağı istehsal edir. Azərbaycan da onların arasında yer tutmalıdır, həm daxili bazarı təmin etməlidir, həm ixrac etməlidir.

Meyvə bağları genişlənir. Çaycılıq, çəltikçilik, fındıqçılıq, baramaçılıq, sitrus meyvəçiliyi, tütünçülük və digər sahələri inkişaf etdirmək üçün bir neçə müşavirə keçirilmişdir.

Bildiyiniz kimi, fındıqçılıq bizim üçün ənənəvi sahədir və pomidor ixracından sonra kənd təsərrüfatında ikinci valyuta gətirən sektordur. Biz burada da çox ciddi işlər apardıq. Bu işlərə 2015-ci ildən başladıq, 2016-cı ildə fındıq bağlarının sahəsi 40 min hektara çatdırıldı. Bu il isə fındıq bağlarının sahəsi 67 min hektara çatacaq.

Azərbaycanda turizmin inkişafına toxunan Prezident demişdir ki, bu sahədə son illər Azərbaycanda sürətlə iş gedir. Təhlükəsizlik, sabitlik, qonaqpərvərlik, gözəl iqlim, tarixi abidələrimiz, infrastruktur, 6-sı beynəlxalq olmaqla 7 aeroport, gözəl avtomobil yollarımız və viza rejiminin sadələşdirilməsi - indi 90-dan çox ölkənin vətəndaşları vizanı aeroportlarda alırlar. İndi bu sahədə də təkmilləşmə işləri aparılacaqdır. Biz elə bir sistem yaratmalıyıq ki, turistləri daha çox cəlb edək. İndi aeroportlarda yeni sistem yaradılır və gələn aydan başlayaraq tətbiq ediləcək. Bizim bütün sərhəd-keçid məntəqələrimizdə qonaqlar üçün maksimum rahat şərait yaradılmalıdır. O, turizmlə bağlı dəmir yolu ilə layihəsindən danışmış, demişdir: Biz bu il Qəbələ şəhərinə dəmir yolu çəkməyə başlayırıq. Bu, o bölgəyə turist axınını təmin edəcək. Bu il Qusar rayonuna dəmir yolunun çəkilməsi ilə bağlı tədqiqatlar, sənədləşmə işləri, texniki-iqtisadi əsaslandırma aparılır.

Bu il 3 “ASAN xidmət” mərkəzi açılır. Onlardan biri fevral ayında Mingəçevir şəhərində istifadəyə verilib. Digər iki mərkəz isə Şəki və İmişli şəhərlərində açılacaq. Daha 5 mərkəzin tikintisi ilə bağlı göstəriş verilmişdir. Onlar gələn il açılmalıdır. Beləliklə, gələn ilin sonuna qədər bizdə 20 “ASAN xidmət” mərkəzi olacaqdır.

Ailə Biznesinə Asan Dəstək (ABAD) mərkəzləri yaradılır. Bunun da həm sahibkarlığın, həm də biznesin inkişafı üçün böyük əhəmiyyəti var. ABAD mərkəzlərində rəqabətqabiliyyətli məhsullar yaradılır. Mən dövlət şirkətlərinə göstəriş vermişdim və özəl şirkətlərə tövsiyə etmişdim ki, bu sahəyə diqqət göstərsinlər. Bu proses artıq başlamışdır.

Bu il 5-6 min insan özünüməşğulluq proqramı ilə əhatə ediləcək. Bu, işsizliyin aradan qaldırılması və yoxsulluğun azaldılması istiqamətində önəmli addım olacaqdır.

İnfrastruktur layihələri ilə bağlı planlardan danışan dövlət başçısı demişdir ki, ilin sonuna qədər ölkəmizdə qazlaşdırma 95 faizə çatmalıdır. “Şimal-2” elektrik stansiyasının tikintisi başa çatmalıdır. Bu, bizə təxminən 400 meqavata yaxın əlavə elektrik enerjisi verəcək. Biz indi elektrik enerjisini qonşu ölkələrə ixrac edirik. Bizdə çox gözəl ixrac potensialı yaradılıbdır. Ölkə daxilində bütün tələbat tam təmin edilir. Biz mütləq alternativ enerji mənbələri yaratmalıyıq - külək, günəş, su elektrik stansiyaları tikməliyik.

Ölkə Prezidenti İlham Əliyev nəqliyyat sektoru ilə bağlı qeyd etmişdir ki, bu il Ələt Beynəlxalq Dəniz Ticarət Limanının birinci mərhələsinin açılışı qeyd ediləcək. İndi Ələt limanı fəaliyyət göstərir. Bakı-Tbilisi-Qars dəmir yolunun istismara verilməsi məhz Ələt limanında olmuşdur. Ancaq yaxın gələcəkdə birinci faza tam başa çatacaq. Xəzər dənizinin 15 milyon ton yükaşırma qabiliyyəti olan ən böyük ticarət limanı Azərbaycanda – Ələtdə tikilir. Bakı şəhərinin nəqliyyat problemləri kompleks şəkildə həllini tapmalıdır. Burada koordinasiya işləri aparılmalıdır. İndi Bakıda yeni yollar salınır, tunellər tikilir. Bununla şəhər nəqliyyatı daha da rahatlaşacaq. O, demişdir: Biz indi Şimal-Cənub nəqliyyat dəhlizinin yaradılması ilə ciddi məşğuluq. Onun çatışmayan hissəsi, o cümlədən Azərbaycan tərəfinin iştirakı ilə reallaşacaq. Şərq-Qərb nəqliyyat dəhlizi artıq reallıqdır. Biz indi mövcud olan dəmir yolu infrastrukturumuzu modernləşdirməliyik ki, sürət daha da artsın. Çünki Azərbaycan ərazisindən çox böyük yüklər daşınacaq.

Cənub Qaz Dəhlizi uğurla icra edilir. “Şahdəniz-2” layihəsinin icrası 99 faizdir. Cənubi Qafqaz Kəməri 96 faiz, TANAP 92 faiz. Yəni, bu layihələrdə Azərbaycan aparıcı rol oynayır. Biz, eyni zamanda, TAP layihəsinin səhmdarıyıq. Orada isə Azərbaycanın icra səviyyəsi 68 faizdir. Yəni, Cənub Qaz Dəhlizi artıq reallıqdır. Bu reallığı biz yaratmışıq və bu, ölkəmizin uzunmüddətli inkişafı üçün xüsusi əhəmiyyətə malik olan layihədir.

Gələn ay xalqımızın Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyini qeyd edəcəyini xatırladan Prezident İlham Əliyev demişdir: Mən bu ili “Azərbaycan Xalq Cümhuriyyəti İli” elan etmişəm. Bu tarixə nəzər salarkən görürük ki, Azərbaycan tarixdə heç vaxt indiki qədər güclü, indiki qədər qüdrətli dövlət olmamışdır. Bunu biz yaratmışıq. Azərbaycan xalqının iradəsi, Azərbaycan dövlətinin siyasəti bu gün ölkəmizin inkişafı üçün əsas amildir.

# Prezident İlham Əliyevin iqtisadi inkişaf strategiyasının əsas istiqamətləri

*İnsanların həyat şəraitini yaxşılaşdırmaq qarşıda duran ən böyük vəzifədir. Bunu etmək üçün bizim hər cür imkanımız və yetərincə möhkəm iradəmiz var. Əminəm ki, Azərbaycan iqtisadi cəhətdən güclü ölkəyə çevriləcək və digər ölkələrə nümunə olacaqdır. Mən Azərbaycanı belə görmək istəyirəm[1].*

*İlham Əliyev*



**Ramiz Mehdiyev**
**Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, Azərbaycan Milli Elmlər Akademiyasının akademiki**

Hər bir dövlətin uzunmüddətli inkişaf perspektivi onun sağlam və etibarlı təməl üzərində qurulmasından asılıdır. Bu gün ölkəmizin regionda əsas iqtisadi güc mərkəzinə çevrilməsi müasir Azərbaycanın qurucusu, ümummilli lider Heydər Əliyevin fəaliyyəti, xüsusilə də onun dövlət quruculuğu və iqtisadi islahatların həyata keçirilməsi sahəsində atdığı strateji addımlar nəticəsində mümkün olmuşdur.

Azərbaycanda müstəqil dövlətçiliyin qorunması ənənəsinin yaradılması ulu öndərin, dövlətimizin modernləşməsi və daha da güclənməsi, milli iqtisadiyyatımızın sürətli inkişafı Prezident İlham Əliyevin adı ilə bağlıdır.

Ümumiyyətlə, məqsəd və vəzifələri, orta və uzunmüddətli dövr üçün inkişaf istiqamətlərini dəqiq müəyyənləşdirmədən, müxtəlif sahələr üzrə fəaliyyət proqramlarını hazırlamadan ölkənin sosial-iqtisadi həyatında əsaslı dönüşə nail olmaq mümkün deyil. Ötən 15 il ərzində Prezident İlham Əliyev ulu öndərin qurduğu təməl üzərində Azərbaycanın bir dövlət kimi dayaqlarını möhkəmləndirdi.

Dövlət başçısının məqsədyönlü, konkret hədəflərə istiqamətlənmiş fəaliyyəti ölkənin siyasi və sosial-iqtisadi həyatı ilə bağlı problemlərin həllinə sistemli və kompleks yanaşmanı təmin etmiş, qarşıya qoyulan vəzifələri yerinə yetirmək üçün ən səmərəli üsul və vasitələrin seçilməsinə imkan vermişdir.

Azərbaycanın sosial-iqtisadi inkişafının əsas istiqamətləri İlham Əliyevin 2003-2018-ci illərdə imzaladığı çoxsaylı fərman və sərəncamlarda, dövlət proqramlarında öz əksini tapmışdır.

Son 15 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə iqtisadi quruculuq prosesi geniş vüsət aldı. Azərbaycan regionun ən perspektivli ölkəsinə çevrildi. Hər bir Azərbaycan vətəndaşı ölkəmizin iqtisadi gücü və qüdrətinin ilbəil artmasının şahidi oldu, iqtisadi inkişafın nəticələrini özünün həyat səviyyəsinin yüksəlməsində hiss etdi.

x x x

## HEYDƏR ƏLİYEV İQTİSADİ STRATEGİYASININ DÖNMƏZLİYİ

Hər bir xalqın, millətin xoşbəxtliyi, ilk növbədə onun müstəqil və güclü dövlətə malik olması ilə müəyyən edilir. Dövlət müstəqilliyi, hər şeydən əvvəl, onu qazanmış xalqın özünütəsdiqi və milli özünüdərki üçün bir şansdır. Belə bir tarixi şansdan faydalanan və ondan səmərəli istifadə edən xalqlar həm milli inkişafa nail olur, həm də sahib olduqları dövlətin dayaqlarını möhkəmləndirə bilirlər.

Azərbaycanın müasir tarixində dövlətçiliyin qorunması ənənəsinin yaranması ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Heç şübhəsiz, dövlət müstəqilliyinin qorunub saxlanılması onun qazanılmasından qat-qat çətindir. Bunu müstəqil Azərbaycanın keçdiyi inkişaf yolu da bir daha təsdiq edir. Bu müddət ərzində dövlətimizə və onun müstəqilliyinə qarşı qəsdlər olsa da, onların qarşısı qətiyyətlə alınmışdır.

Dövlət müstəqilliyi və siyasi azadlıq milli iqtisadiyyatın inkişafına şərait yaratdığı kimi, milli iqtisadiyyatın inkişafı və güclənməsi də dövlət müstəqilliyinin dayaqlarını daha da möhkəmləndirir. Əgər Azərbaycan öz dövlət müstəqilliyini qoruyub saxlaya bilməsəydi, nə neft strategiyasını, nə də təşəbbüskarı olduğumuz digər strateji və transmilli layihələri həyata keçirə bilərdik. Dövlət müstəqilliyinin gücləndirilməsi iqtisadiyyatımızın milli maraqlara uyğun inkişaf etdirilməsinə şərait yaratmışdır.

Azərbaycanın təkcə dövlətçilik deyil, həm də iqtisadi inkişaf tarixinin ən parlaq və şərəfli dövrü Heydər Əliyevin adı ilə bağlıdır. Həmin dövrün siyasi və iqtisadi aspektlərinin öyrənilməsi hər zaman öz aktuallığını saxlayır. Bu, gələcək inkişafımızın əsas istiqamətlərini müəyyən etmək və bir daha dəqiqləşdirmək baxımından zəruridir. Heydər Əliyevin "İqtisadiyyatı qüdrətli olan dövlət hər şeyə qadirdir" fikri bir daha təsdiq edir ki, ümummilli lider milli iqtisadiyyatımızın inkişafına dövlət quruculuğunun mühüm tərkib hissəsi kimi hər zaman böyük önəm vermişdir.

Keçmiş İttifaq daxilində Azərbaycan iqtisadiyyatı vahid xalq təsərrüfatı kompleksinin tərkib hissəsi olsa da, özünəməxsus inkişaf yolu keçmiş, Heydər Əliyevin rəhbərliyi ilə həmin dövrdə genişmiqyaslı iqtisadi quruculuq prosesinə start verilmişdir.

Hələ Sovet İttifaqı dağılmamışdan əvvəl ekspertlər siyasi müstəqilliyə iqtisadi cəhətdən hazır olan iki respublikadan biri kimi, məhz Azərbaycanı qeyd edirdilər. Çıxarılan belə bir nəticə ölkəmizin təkcə təbii sərvətlərinin zənginliyinə deyil, həm də milli iqtisadiyyatımızın inkişaf perspektivlərinə əsaslanırdı. Belə ki, keçmiş Sovet İttifaqı dövründə Azərbaycanın büdcə gəlirləri xərclərindən bir qayda olaraq çox olurdu. Həmçinin, istehsal olunan milli gəlirlə istehlak olunan milli gəlir arasında birincinin xeyrinə böyük fərq əmələ gəlirdi.

Keçmiş İttifaqın tərkibində olan "müttəfiq" respublikalardan biri kimi, mövcud maneələrə, müstəqil iqtisadi siyasət yürütmək imkanlarının məhdud olmasına baxmayaraq, Azərbaycan Heydər Əliyevin rəhbərliyi ilə öz iqtisadi potensialını, milli iqtisadi maraqlarını reallaşdıra bilmişdir. Respublikamız iqtisadiyyatın bütün sahələrində güclü iqtisadi və kadr potensialı yaratmağa nail olmuşdur. Bir çox məhsulların istehsalına görə Azərbaycan keçmiş SSRİ-də qabaqcıl yerlərdən birini tuturdu. Bu dövrdə yeni sənaye müəssisələrinin açılması, maşın və avadanlıqların alınması digər respublikalara nisbətən Azərbaycanda əsas fondların daha sürətlə artmasına səbəb olmuşdur.

Heydər Əliyev 1993-cü ildən – müstəqil Azərbaycana rəhbərlik etdiyi ilk dövrdən müasir dünya düzəninin inkişaf meyillərini uzaqgörənliklə qiymətləndirərək, çağdaş cəmiyyətin qəbul etdiyi inkişaf yolunu seçdi. Bu yol isə iqtisadiyyat üzərində dövlət inhisarçılığının aradan qaldırılmasından, sahibkarlığın inkişaf etdirilməsindən və iqtisadiyyatın liberallaşdırılmasından başlayır.

1994-cü ildə isə "Əsrin müqaviləsi"nin imzalanması ilə Heydər Əliyevin müəllifi olduğu neft strategiyasının əsası qoyuldu. Bu strategiya çərçivəsində həyata keçirilmiş tədbirlər, o cümlədən Dövlət Neft Fondunun yaradılması məhz davamlı inkişafın təmin edilməsinə, dövlətimizin iqtisadi və sosial dayaqlarının möhkəmləndirilməsinə yönəldilmişdir.

Milli iqtisadiyyatımızın inkişafı üçün strateji və siyasi xarakterli mühüm addımlardan biri 1995-ci il noyabrın 12-də müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbul edilməsi oldu. Yeni Konstitusiya dövlət idarəçiliyinin formasını, vətəndaşların və dövlətin hüquq və vəzifələrini müəyyən etməklə yanaşı, həm də iqtisadi sistemin əsaslarını, dövlətin iqtisadi strategiyasının başlıca prinsiplərini də özündə əks etdirmişdir.

Ölkəmizin sürətli sosial-iqtisadi inkişafı və onun regionda güc mərkəzinə çevrilməsi ulu öndər Heydər Əliyevin dövlət quruculuğu və iqtisadi islahatların həyata keçirilməsi sahəsində atdığı strateji addımlar nəticəsində mümkün olmuşdur. Xüsusilə də 1990-cı illərin ortalarından başlayaraq görülmüş tədbirlər milli iqtisadiyyatın sabitləşdirilməsində və inkişafında həlledici rol oynamışdır.

Xatırladaq ki, 1990-1995-ci illərdə ÜDM-in həcmi hər il orta hesabla 15 faiz azalırdı. İqtisadi artım tempinin aşağı düşməsi inflyasiya ilə müşayiət edildiyinə görə ölkədə 1990-cı illərin əvvəllərində staqflyasiya müşahidə edilirdi. Azərbaycanda 1991-ci ildən başlayan iqtisadi tənəzzülün qarşısı yalnız makroiqtisadi sabitləşdirmə proqramlarının həyata keçirilməsindən sonra – 1996-cı ildə alındı.

1990-cı illərin əvvəllərində ölkədə qiymət artımı hiperinflyasiya həddinə çatmışdır. Belə ki, inflyasiyanın səviyyəsi 1992-ci ildə 1174 faiz, 1993-cü ildə 1081 faiz təşkil etmişdir. Yalnız Heydər Əliyevin imzaladığı "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi və iqtisadiyyatın maliyyə vəziyyətinin sabitləşdirilməsi tədbirləri haqqında" 1994-cü il 15 iyun tarixli Fərmanın icrasından sonra inflyasiyanı 1995-ci ildə 85 faizə, 1996-cı ildə isə 2,5 faizə endirmək mümkün olmuşdur. Sərt pul-kredit və maliyyə siyasətinin həyata keçirilməsini nəzərdə tutan bu Fərmanla ölkədə ardıcıl antiinflyasiya tədbirlərinə başlanıldı. Artıq 1996-cı ildən etibarən inflyasiya tədricən azalaraq 2002-ci ildə 2,8 faizə enmişdir.

1990-cı illərin əvvəllərində inflyasiya tempinin əməkhaqqının artım tempini əhəmiyyətli dərəcədə qabaqlaması əhalinin alıcılıq qabiliyyətini kəskin şəkildə aşağı salırdı. Əhalinin sosial müdafiəsi, hər şeydən əvvəl, maliyyə sabitliyinin təmin olunmasını tələb edirdi. Yüksək inflyasiya şəraitində isə həyat səviyyəsini nəinki yüksəltmək, hətta qoruyub saxlamaq mümkün deyildi. Yalnız 1996-cı ildən etibarən inflyasiyanın cilovlanması əhalinin həyat səviyyəsinin pisləşməsinin qarşısını aldı.

Heydər Əliyevin milli iqtisadiyyatımızın inkişafı üçün əsas xidmətləri bir tərəfdən ictimai-siyasi sabitliyin təmin edilməsindən, digər tərəfdən də iqtisadi islahatların aparılmasına ardıcıl siyasi dəstəyin verilməsindən ibarət olmuşdur. Belə bir siyasi impuls olmadan iqtisadi quruculuq sahəsində böyük uğurlar əldə etmək mümkün olmazdı.

İqtisadi islahatların həyata keçirilməsi üçün münbit şəraitin yaradılması, milli iqtisadiyyatımızın bazar münasibətləri əsasında inkişafına konstitusion təminatın verilməsi, neft müqavilələrinin imzalanması, xarici investisiyaların ölkə iqtisadiyyatına cəlb edilməsi, ölkəmizin beynəlxalq əhəmiyyətli strateji-iqtisadi layihələrə qoşulması, dünyanın qabaqcıl dövlətləri ilə iqtisadi əməkdaşlığın dərinləşdirilməsi ümummilli liderin fəaliyyəti, onun bu sahədə atdığı strateji addımların nəticəsində mümkün olmuşdur.

Ulu öndər Heydər Əliyevin söylədiyi bir fikri xatırlatmaq istərdim: "Beş ildən sonra Azərbaycan dünyəvi dövlət, daha yüksək sürətlə inkişaf edən, kifayət qədər güclü iqtisadiyyata və yaxşı həyat səviyyəsinə malik respublika olacaqdır. Bu, həddən çox "əgər"lərdən asılıdır…"[2]. Bəli! Ümummilli liderin qətiyyətlə söylədiyi nikbin fikirlər artıq özünü doğrultmaqdadır. Fikrimizcə, bu şərtlərdən ən əsası bazar "relsləri" üzərinə keçirilmiş Azərbaycan iqtisadiyyatının inkişaf sürətinin artırılması, ölkənin mövcud iqtisadi potensialından daha səmərəli istifadə edilməsidir. Konkret strategiya olmadan nə iqtisadi transformasiyanı, nə də milli iqtisadiyyatın formalaşdırılması prosesini uğurla həyata keçirmək mümkündür. Strategiya sosial-iqtisadi inkişafın əsas oriyentirlərini müəyyən edir. Genişmiqyaslı islahatlar aparmadan, ölkə iqtisadiyyatının ayrı-ayrı sahələrində köklü dəyişikliklər etmədən müəyyən edilmiş iqtisadi strategiyanın reallaşdırılmasına nail ola bilməzdik. Dünya ölkələrinin təcrübəsi göstərir ki, iqtisadi islahatları yalnız güclü siyasi iradəyə və qətiyyətli mövqeyə malik olan dövlətlər uğurla həyata keçirə bilir. Bu baxımdan Azərbaycanın siyasi rəhbərliyinin qəbul etdiyi radikal qərarlar islahatların dönməzliyinin təmin edilməsində həlledici rol oynamışdır.

Siyasi dəstək olmadan yeni iqtisadi münasibətlərin təşəkkül tapması qeyri-mümkündür. Bu baxımdan iqtisadiyyatın liberallaşdırılmasına, sahibkarlığın inkişaf etdirilməsinə Heydər Əliyevin ardıcıl siyasi və ideoloji dəstəyi iqtisadi yeniləşmə prosesinin dönməzliyini təmin etmişdir. Belə ki, ulu öndərin təşəbbüsü ilə yeni iqtisadi sistemin formalaşdırılması üçün bir sıra fərman və sərəncamlar imzalanmış, mühüm dövlət proqramları qəbul edilmişdir. Ölkədə sahibkarlığın dəstəklənməsi özəl sektorun güclənməsi üçün geniş perspektivlər açmışdır. 1990-cı illərin ortalarından etibarən həyata keçirilən özəlləşdirmə proqramı özəl sektorun təşəkkülü prosesinə zəmin yaratmışdır.

Ulu öndərin imzaladığı "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının Dövlət Proqramı (2002-2005-ci illər)", "Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət himayəsi sahəsində əlavə tədbirlər haqqında" 2002-ci il 10 sentyabr tarixli, "Sahibkarlığın inkişafına mane olan müdaxilələrin qarşısının alınması haqqında" 2002-ci il 28 sentyabr tarixli fərmanlar özəl sektorun inkişafında mövcud olan problemlərin kompleks və sistemli həllini, sahibkarlığın sürətli inkişafı üçün əlverişli iqtisadi və institusional mühitin yaradılmasını, müxtəlif dövlət orqanlarının nəzarət funksiyalarının məhdudlaşdırılmasını nəzərdə tuturdu.

Azərbaycanda iqtisadiyyatın idarə edilməsinin təşkilati strukturunun təkmilləşdirilməsinə, islahatların kadr təminatı ilə bağlı problemlərin həllinə ümummilli lider xüsusi diqqət yetirirdi. Onun tərəfindən "Azərbaycan Respublikasının dövlət idarəetmə sistemində islahatlar aparılması üzrə dövlət komissiyasının yaradılması haqqında" 1998-ci il 29 dekabr tarixli Fərmanın imzalanması institusional islahatların konseptual əsaslarının hazırlanması və bu prosesin geniş miqyasda həyata keçirilməsi baxımından xüsusi əhəmiyyət kəsb etmişdir.

Müasir dövrün tələblərinə cavab verən dövlət qulluğu sisteminin formalaşdırılması istiqamətində də mühüm addımlar atılmışdır. Belə ki, "Dövlət qulluğu haqqında" Qanun qəbul edilmiş, dövlət orqanlarında müsabiqə yolu ilə işə qəbul prosesinə başlanılmış, Dövlət Qulluğu Məsələləri üzrə Komissiya yaradılmışdır.

Ulu öndər Azərbaycanın iqtisadi inkişaf tarixinə həm də radikal torpaq islahatlarının müəllifi kimi imzasını atdı. 1996-cı ildə qəbul edilmiş "Torpaq islahatı haqqında" Qanuna əsasən, MDB məkanında ilk dəfə olaraq, torpaq üzərində xüsusi mülkiyyətçiliyin əsası qoyuldu. Bu, torpaq bazarının və kənddə yeni iqtisadi münasibətlərin formalaşması üçün hüquqi baza yaratdı.

Heydər Əliyev aqrar islahatların gedişi və onun perspektivləri barədə çox aydın strateji baxışlara malik idi. Ümummilli lider qeyd edirdi: "Aqrar bölməni keçmiş sistem əsasında, keçmiş prinsiplər əsasında idarə edib istənilən nəticəyə nail ola bilmərik... İslahatların əsasını mülkiyyət formasının dəyişdirilməsi təşkil edir... Gərək kəndli torpağın sahibi olsun və bilsin ki, bütün bunlar onundur və istədiyi kimi istifadə edə bilər... İslahatlar xalqımızın ümumi rifahının qaldırılması üçün həyata keçirilməlidir. Əks təqdirdə, islahatlar səmərəsiz ola bilər... Bu islahatların aparılmasında mühafizəkarlığa qətiyyən yol vermək olmaz, eyni zamanda, islahat şüarları altında aqrar bölmədə əldə olan potensialımızın dağılmasına da yol vermək olmaz"[3].

Həyata keçirilmiş aqrar islahatların nəticəsidir ki, hazırda kənd təsərrüfatı istehsalının 99 faizi özəl bölməyə əsaslanır. Bu isə aqrar sektorun inkişafına müsbət təsir göstərən həlledici amildir. 1992-1995-ci illərdə kənd təsərrüfatında istehsal həcmi ildə orta hesabla 12 faiz, təkcə 1992-ci ildə isə 23,8 faiz aşağı düşmüşdür. Aqrar sahədə tənəzzülün qarşısı yalnız 1998-ci ildən alınmış və həmin dövrdən başlayaraq, istehsal artan dinamika ilə davam etmişdir.

1999-cu ildən etibarən kənd təsərrüfatı məhsulları istehsalçıları torpaq vergisi istisna olmaqla, bütün vergilərdən azad olunmuşdur. Həmin güzəştlər davamlı olaraq bu günə kimi tətbiq edilməkdədir.

İqtisadi islahatların həyata keçirilməsi sahəsində beynəlxalq maliyyə təşkilatları ilə sıx əməkdaşlıq münasibətləri qurulmuşdur. Azərbaycan Respublikası Dünya Bankına və Beynəlxalq Valyuta Fonduna (BVF) üzv dövlət kimi 1992-ci ildə qəbul edilsə də, həmin təşkilatlarla intensiv əməkdaşlığa, birgə hazırlanmış iqtisadi proqramların və layihələrin həyata keçirilməsinə, kredit transşlarının açılmasına, əsasən, 1995-ci ildən başlanılmışdır. Bu, hər şeydən əvvəl, onunla izah olunur ki, həmin dövrədək ölkəmizdə siyasi vəziyyətin qeyri-sabitliyi şəraitində beynəlxalq maliyyə təşkilatları Azərbaycanla fəal əməkdaşlığa meyil etmir və kreditlərin ayrılmasında gözləmə mövqeyi tuturdular. Birgə iqtisadi proqram və layihələrin həyata keçirilməsinə ictimai-siyasi vəziyyətin sabitləşdirilməsindən sonra başlanılmışdır.

Heydər Əliyev iqtisadi strategiyası hələ uzunmüddətli dövr üçün Azərbaycanda əsas götürüləcək. Prezident İlham Əliyev 2003-cü ildə seçkiqabağı çıxışlarında ulu öndərin müəyyən etdiyi ümumi iqtisadi kursun davam etdiriləcəyini bəyan etmişdir. Çünki bu kurs dünya sivilizasiyasının qəbul etdiyi bazar iqtisadiyyatı prinsiplərinə, azad sahibkarlığa, beynəlxalq iqtisadi əməkdaşlığın dərinləşməsinə, sosialyönümlü iqtisadi siyasətin həyata keçirilməsinə əsaslanır.

İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti kimi səlahiyyətlərinin icrasına yenicə başladığı dövrdə jurnalistlərə verdiyi ilk müsahibəsində bildirmişdir: "Artıq Azərbaycanda ölkəmizi inkişaf etdirmək üçün gözəl zəmin yaranıbdır. On il ərzində Heydər Əliyevin siyasəti Azərbaycanda çox güclü bir təməl qoyubdur. Bu təməlin üzərində gözəl binanın inşa edilməsi asan görünə bilər. Amma, eyni zamanda, həyat yerində durmur. Qarşımıza yeni tələblər, yeni vəzifələr çıxır"[4].

Bu gün islahatların gedişi prosesində yeni iqtisadi şəraitin reallıqları nəzərə alınır, iqtisadi siyasətin ayrı-ayrı istiqamətləri müasir dövrün tələblərinə uyğunlaşdırılır və daha da təkmilləşdirilir.

## PREZİDENT İLHAM ƏLİYEVİN HÖKUMƏTİN İQTİSADİ BLOKUNA İLK TAPŞIRIQLARI

"Bütün planlarımızın həyata keçirilməsi üçün başlıca şərt iqtisadi potensialdır"[5]. Bu, Prezident İlham Əliyevin səsləndirdiyi əsas tezislərdən biridir. Təsadüfi deyildir ki, hazırda Azərbaycanda dövlət idarəçiliyi əsas etibarilə "güclü iqtisadiyyat-güclü dövlət" prinsipinə əsaslanır. İqtisadi diplomati-

yanın imkanlarından maksimum istifadə edilməsi də bu prinsipin reallaşdırılmasına xidmət edir.

Hələ 2003-cü ildə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərinin icrasına başladığı çox qısa bir müddətdə İlham Əliyev ölkəmizin inkişaf prioritetlərini müəyyən edən "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" Fərman imzaladı, az sonra davamlı və tarazlı inkişafın təmin edilməsinə yönəldilmiş "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı"nı (2004-2008-ci illər) təsdiq etdi.

Prezident İlham Əliyev neft gəlirlərinin artdığı bir vaxtda makroiqtisadi sabitlik üçün müəyyən təhlükələrin, o cümlədən inflyasiya potensialının yarana biləcəyini nəzərə alaraq, "Azərbaycan Respublikasında antiinflyasiya tədbirlərinin gücləndirilməsi haqqında" 2005-ci il 31 may tarixli Fərman imzalamışdır. Milli iqtisadiyyatımızın neft bumu mərhələsinə hazırlığını təmin edən bu Fərmanda dövlət büdcəsi xərclərinə nəzarətin gücləndirilməsi, neft ixracından əldə ediləcək vəsaitlərin səmərəli idarə olunması və istifadəsi ilə bağlı məsələlər öz əksini tapmışdır.

Davamlı inkişaf neft gəlirlərinin prioritet istiqamətlər üzrə səmərəli istifadə edilməsindən asılıdır. Bu baxımdan 2004-cü ildə "Neft və qaz gəlirlərinin idarə olunması üzrə uzunmüddətli strategiya"nın (2005-2025) dövlət başçısı tərəfindən təsdiqi xüsusi olaraq qeyd edilməlidir. Azərbaycanda neft və qaz gəlirlərinin kəskin artması şəraitində makroiqtisadi sabitliyin qorunması, gəlirlərin bir hissəsinin gələcək nəsillər üçün saxlanması, onlardan əhalinin rifahının yüksəldilməsi üçün istifadə edilməsi, qeyri-neft sektorunun inkişafının stimullaşdırılması neft və qaz gəlirlərinin idarə olunması üzrə uzunmüddətli strategiyanın qəbul edilməsini zərurətə çevirmişdir. Bu strategiya neft və qaz gəlirlərindən istifadənin əsas prinsiplərini və ortamüddətli xərclər siyasətini müəyyənləşdirdi.

Prezident İlham Əliyev "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" 2003-cü il 24 noyabr tarixli Fərmanı ilə hökumətin iqtisadi blokuna ilk tapşırıqlarını vermişdir. Ölkəmizin sosial-iqtisadi həyatının ən aktual problemlərini özündə əks etdirən bu Fərmanı dövlət başçısının iqtisadi komandaya ilk tapşırıqlarının məcmusu kimi qiymətləndirmək olar.

Şərti olaraq, Fərmanda əks olunan məsələləri məzmun və xarakterinə görə 5 əsas blok üzrə - institusional, sosial, sənaye, sahibkarlığın inkişafı və bazar mühitinin yaxşılaşdırılması və dövlət maliyyə sisteminin təkmilləşdirilməsi istiqamətləri üzrə qruplaşdırmaq olar.

İnstitusional blok qəbul edilmiş dövlət proqramlarının icra vəziyyətinin araşdırılması, iqtisadiyyatın idarə edilməsində islahatların başa çatdırılması, vətəndaşların ərizə və şikayətlərinə vaxtında baxılmasının təmin edilməsi, mərkəzi icra hakimiyyəti orqanlarında intizamın gücləndirilməsi, beynəlxalq və regional iqtisadi qurumlarla əməkdaşlığın dərinləşdirilməsi, bank sistemində və kommunal sektorda islahatların aparılması kimi məsələləri əhatə edirdi.

Sosial bloka işsizliyin azaldılması, qaçqın və köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması, regionların sosial-iqtisadi inkişafı, əməkhaqqı sisteminin təkmilləşdirilməsi, pensiya sistemində və sosial sahədə islahatların sürətləndirilməsi və məşğulluğun təmin edilməsi məsələləri daxil edilmişdir.

Sənaye bloku qeyri-neft sektorunun inkişaf etdirilməsi, bu sektora investisiyaların cəlb olunmasının stimullaşdırılması, yeni emal müəssisələrinin yaradılması, ixracın stimullaşdırılması və alternativ enerji mənbələrindən istifadə edilməsi məsələlərini nəzərdə tuturdu.

Sahibkarlığın inkişafı və bazar mühitinin yaxşılaşdırılması bloku özəl sektorun inkişafı ilə bağlı qərarların icrasının təmin edilməsi, dövlət müəssisələrinin özəlləşdirilməsinin və idarəetməyə verilməsinin sürətləndirilməsi, inhisarçılıq fəaliyyətinin məhdudlaşdırılması və haqsız rəqabətin qarşısının alınması, kreditlər üçün girov təminatının təkmilləşdirilməsi, aqrar sektorda islahatların ikinci mərhələsinin başlanılması ilə bağlı tapşırıqları əhatə edirdi.

Dövlət maliyyə sisteminin təkmilləşdirilməsi bloku dövlət büdcəsi xərclərinin strukturunun təkmilləşdirilməsi, dövlət büdcəsi vəsaitlərindən təyinatı üzrə səmərəli istifadə edilməsi, dövlət satınalmalarına nəzarətin gücləndirilməsi, büdcə sisteminin təkmilləşdirilməsi, dövlət müəssisələrində maliyyə intizamının möhkəmləndirilməsi və ödəməmələr probleminin aradan qaldırılması ilə bağlı tapşırıqları ehtiva edirdi.

Sistemli və kompleks xarakter daşıyan bu Fərman biri digərinin reallaşmasına şərait yaradan istiqamətləri özündə birləşdirmişdir. Məsələn, inhisarçılığı aradan qaldırmadan sahibkarlığı inkişaf etdirmək, idarəetmə sistemini yeniləşdirmədən iqtisadi islahatları sürətləndirmək, qeyri-neft sektorunun və regionların inkişafını təmin etmədən işsizlik problemini həll etmək mümkün deyildir.

Adından da göründüyü kimi, Fərman sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirlərini əhatə edir. Doğrudur, 2000-ci illərin ortalarında Azərbaycan iqtisadiyyatı artıq inkişaf "relsləri" üzərinə keçirilsə də, iqtisadi proseslərə impuls, dinamizm verməyə ehtiyac var idi. Bu baxımdan Prezident İlham Əliyevin ilk iqtisadi Fərmanı inkişafın sürətləndirilməsinə yönəldilmişdir. Ulu öndər də 1994-cü ildə "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi və maliyyə vəziyyətinin sabitləşdirilməsi tədbirləri haqqında" ilk genişmiqyaslı Fərman imzalamışdır. Məhz həmin Fərmanla makroiqtisadi sabitliyin əsası qoyulmuşdur.

Prezident İlham Əliyevin ölkənin iqtisadi həyatında reallaşdırdığı mühüm təşəbbüslərdən biri denominasiya ilə bağlı olmuşdur. Ölkədə pul dövriyyəsini daha da yaxşılaşdırmaq, məzənnə və qiymətlər miqyasını optimallaşdırmaq, uçot və hesablaşma sistemini sadələşdirmək məqsədi ilə 2005-ci ildə "Azərbaycan Respublikasında pul nişanlarının nominal dəyərinin və qiymətlər miqyasının dəyişdirilməsi (denominasiyası) haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı imzalandı. 2006-cı il yanvarın 1-dən milli valyutanın - manatın denominasiyası həyata keçirildi. 1 yeni manat 5000 köhnə manata bərabər tutuldu. Denominasiyanın həyata keçirilməsi ölkəmizdə makroiqtisadi sabitliyi bir daha təsdiq etdi.

Dövlət müstəqilliyinin bərpa edilməsindən sonra keçmiş Sovet İttifaqından miras qalmış problemlərdən biri 1990-cı illərin əvvəllərində yüksək inflyasiya səbəbindən vətəndaşlarımızın keçmiş SSRİ Əmanət Bankının Azərbaycan Respublikası Bankında olan əmanətlərinin kəskin şəkildə ucuzlaşması olmuşdur. Bu əmanətlər Azərbaycan dövləti tərəfindən bir neçə dəfə indeksləşdirilmiş və onlara görə kompensasiyalar verilmiş (1993-1997-ci illərdə), əmanətçilərin bir qismi qeyd olunan kompensasiyanı almış, böyük bir hissəsi əmanətləri və onlara görə verilən kompensasiyaları almaq hüquqlarından istifadə etməmiş və keçən müddət ərzində həmin əmanətlərin dəyəri xeyli azalmışdır. Bunu nəzərə alaraq, Azərbaycan Respublikasının Prezidenti 2012-ci ildə həmin əmanətçilərə fərdi birdəfəlik ödəmələrin verilməsi barədə Fərman imzalamışdır. Belə bir qərarın qəbul edilməsi Azərbaycanda iqtisadi siyasətlə sosial siyasətin bir-biri ilə uzlaşdırıldığını açıq-aydın nümayiş etdirir.

Ümumiyyətlə, məqsəd və vəzifələri, orta və uzunmüddətli dövr üçün inkişaf istiqamətlərini dəqiq müəyyənləşdirmədən, müxtəlif sahələr üzrə fəaliyyət proqramlarını hazırlamadan həyata keçirilən hər hansı bir tədbir ölkənin sosial-iqtisadi həyatında əsaslı dönüş yarada bilməz. 2003-2017-ci illər ərzində Prezident İlham Əliyevin məqsədyönlü, konkret hədəflərə istiqamətlənmiş fəaliyyəti ölkənin siyasi və sosial-iqtisadi həyatı ilə bağlı problemlərin həllinə sistemli və kompleks yanaşmanı təmin etmiş, qarşıya qoyulan vəzifələri yerinə yetirmək üçün ən səmərəli üsul və vasitələrin seçilməsinə imkan vermişdir.




### AZƏRBAYCAN İQTİSADİYYATI YENİ İNKİŞAF MƏRHƏLƏSİNDƏ

Son 15 il sosial-iqtisadi inkişafın sürətləndirilməsi ilə xarakterizə edilməklə Azərbaycan iqtisadiyyatı üçün olduqca uğurlu olmuşdur. Əldə olunan uğurları, ilk növbədə ölkə rəhbərliyinin siyasi iradəsi və qətiyyətli addımları, ictimai-siyasi sabitliyin qorunub saxlanılması, dövlət idarəçiliyinin səmərəli təşkili, vahid dövlət siyasətinin həyata keçirilməsi, iqtisadi inkişafda əsas hədəflərin dəqiq müəyyən edilməsi, islahatların davamlı xarakter daşıması, cəmiyyətin real ehtiyaclarının ödənilməsinə yönəldilmiş dövlət proqramlarının reallaşdırılması təmin etmişdir. Bu müddət ərzində Azərbaycan vətəndaşları ölkəmizin iqtisadi gücü və qüdrətinin getdikcə artmasının şahidi olmaqda və iqtisadi sahədə müşahidə edilən mütərəqqi dəyişiklikləri özünün həyat səviyyəsində, rifahında hiss etməkdədirlər.

Hazırda islahatların texnologiyası da təkmilləşməkdədir. İqtisadi siyasətdə çevikliyin təmin edilməsi, struktur dəyişiklikləri ilə institusional islahatların paralel aparılması, konkret hədəflərə və maliyyə mənbəyinə əsaslanan proqramlı idarəetmə bunu bir daha təsdiq edir. Son 15 ildə 201 proqram xarakterli sənəd, o cümlədən 12 Konsepsiya, 12 Milli Strategiya, 12 Strateji Yol Xəritəsi, 94 Dövlət Proqramı, 10 Milli Fəaliyyət Planı, 23 Tədbirlər Planı, 21 Tədbirlər Proqramı, 17 Milli Plan və proqramlar qəbul edilmişdir.

Hazırda qeyri-neft sektorunda müşahidə edilən davamlı artım meyilləri, valyuta ehtiyatlarımızın həcmi və onunla müqayisədə xarici dövlət borcunun minimal səviyyəsi, mühüm nəqliyyat-enerji layihələrinin reallaşdırılması ölkəmizin milli və iqtisadi təhlükəsizliyi üçün möhkəm əsaslar yaradır. Strateji əhəmiyyətə malik bu cür genişmiqyaslı işlər milli və iqtisadi maraqlarımızın qorunması, iqtisadi diplomatiyanın imkanlarından məharətlə istifadə edilməsi, iqtisadiyyat və siyasətin bir-biri ilə uğurlu bir şəkildə uzlaşdırılması ilə tamamlanır.

Sənayenin modernləşdirilməsi və strukturunun təkmilləşdirilməsi Prezident İlham Əliyevin müəyyən etdiyi iqtisadi siyasətin mühüm tərkib hissəsidir. Belə ki, dövlət başçısı ölkəmizdə sənayeləşmənin sürətləndirilməsi, qeyri-neft sənayesinin ixrac potensialının artırılması, elmtutumlu və innovativ istehsalın təşkili, yüksək əlavə dəyər yaradan rəqabətqabiliyyətli sənaye istehsalının genişləndirilməsi məqsədi ilə "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı"nı təsdiq etmiş, 2014-cü ili "Sənaye İli" elan etmişdir.

Sənaye parkları və məhəllələri mövcud potensialın gücləndirilməsi və yeni istehsal sahələrinin yaradılması, sənayedə struktur dəyişikliyi baxımından yeni yanaşmadır. Odur ki, son dövrlərdə ölkədə bu cür təsisatların yaradılması istiqamətində xeyli iş görülmüşdür.

Kimya sənayesinin inkişaf etdirilməsi məqsədi ilə 2011-ci ildə Prezident İlham Əliyev tərəfindən Sumqayıt Kimya Sənaye Parkının yaradılmasına qərar verilmişdir.

Ölkə başçısının iştirakı ilə 2017-ci ildə Balaxanı Sənaye Parkının açılış mərasimi keçirilmişdir. Sənaye Parkının Balaxanı poliqonuna və tullantıların yandırılması zavoduna, o cümlədən əsas nəqliyyat qovşağına yaxınlığı xammal və enerji təchizatı, əldə edilmiş xam material və ya istehsal edilmiş məhsulun asanlıqla satış bazarına çıxmasına şərait yaradır.

2016-cı ildə təməli qoyulmuş Mingəçevir Sənaye Parkında isə yüngül sənaye məhsulları, o cümlədən iplik, boyama, toxuma, tikiş, corab, ayaqqabı və tibbi kosmetika istehsalı üzrə 9 fabrikin yaradılması nəzərdə tutulur. Pambıqçılığın sürətlə inkişafı qabaqcıl texnologiyalara əsaslanan yeni istehsal və emal sahələrinin təşkilini tələb edir. Mingəçevir Sənaye Parkının ərazisində yaradılmış "Mingəçevir Tekstil" Məhdud Məsuliyyətli Cəmiyyətinin iki iplik istehsalı müəssisəsi - "Ring" üsulu ilə istehsal edilən pambıq-poliester fabriki və "Open End" üsulu ilə iplik istehsal edən fabrik belə müəssisələrdəndir. Prezident İlham Əliyev 2018-ci ilin fevral ayında hər iki fabrikin açılışında iştirak etmişdir.

İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondunun dəstəyi ilə yaradılan bu cür müəssisələrin istifadəyə verilməsi ölkədə toxuculuq sənayesinin inkişafına, yerli istehsal müəssisələrinin davamlı, keyfiyyətli və ucuz xammalla təmin olunmasına, eləcə də istehsal edilən pambığın hazır məhsul kimi ixracına imkan verəcəkdir.

Gəmiqayırma sahəsində ixtisaslaşmış Qaradağ Sənaye Parkında Bakı gəmiqayırma zavodu fəaliyyət göstərir və zavodda yüksək yükgötürmə qabiliyyətinə malik tanker, dəniz təchizat gəmisi və digər təyinatlı gəmilərin istehsalı həyata keçirilir.

Əczaçılıq məhsullarının istehsalı üzrə ixtisaslaşmış Pirallahı Sənaye Parkında artıq təməli qoyulmuş dərman zavodlarının tikintisi istiqamətində müvafiq tədbirlər görülür. Ölkəmiz üçün yeni sahə olan əczaçılıq sənayesinin yaradılması məşğulluğun təmin olunmasında əhəmiyyətli rol oynamaqla yanaşı, həm də yerli istehsal hesabına əhalini keyfiyyətli əczaçılıq məhsulları ilə təmin edəcək, idxaldan asılılığı azaldacaq və ixrac potensialını yüksəldəcəkdir.

2017-ci ildə isə Prezident İlham Əliyev ölkədə ilk dəfə yaradılmış Neftçala Sənaye Məhəlləsinin açılışında iştirak etmişdir. Hazırda Neftçala Sənaye Məhəlləsində avtomobil, balıq yemi, plastik məmulatlar, suvarma sistemləri, polietilen suvarma boruları, kağız stəkanlar və hazır içkilər istehsalı, balıq emalı və konservləşdirilməsi ilə məşğul olan 9 müəssisə rezident kimi qeydiyyata alınmışdır.

2016-cı ildə yaradılmış Masallı Sənaye Məhəlləsində həyata keçiriləcək layihələr əsasən mebel, tikinti materialları, plastik tara, süfrə suyu, qida məhsulları, xalça istehsalı və kənd təsərrüfatı məhsullarının emalı sahələrini əhatə edir.

Bundan başqa, 2017-ci ildə Hacıqabul və Sabirabad Sənaye məhəllələrinin yaradılmasına başlanılmışdır. Hacıqabul Sənaye Məhəlləsində fəaliyyət göstərəcək rezidentlərin ağır maşınqayırma, xüsusi vaqonqayırma, avtomobil ehtiyat hissələri və kompozit materialları istehsalı sahələrində ixtisaslaşması nəzərdə tutulur. Sabirabad Sənaye Məhəlləsində isə yun tədarükü, pambıqtəmizləmə, taxta, plastik məmulatlar və tikinti materiallarının istehsalı, kənd təsərrüfatı məhsullarının emalı müəssisələrinin və logistika mərkəzinin fəaliyyət göstərməsi planlaşdırılır. Hazırda İqtisadiyyat Nazirliyi tərəfindən dövlət başçısının tapşırığına uyğun olaraq, növbəti sənaye məhəllələrinin yaradılması istiqamətində işlər davam etdirilir.

Azərbaycanda qeyri-neft sənayesinin davamlı inkişafında, yerli ehtiyatlardan istifadə edən sənaye sahələrinin yaradılmasında, istehsal prosesinin təşkili zamanı infrastruktur xərclərinin azaldılmasında, sahibkarlar arasında kooperasiya əlaqələrinin gücləndirilməsində, məşğulluğun təmin edilməsində sənaye parkları və sənaye məhəllələri mühüm əhəmiyyət kəsb edir.

İqtisadiyyatın sürətlə inkişafı, dünya ölkələri arasında nüfuzunun yüksəlməsi ölkəmizə marağın artmasına səbəb olmuş, respublikamıza gələn əcnəbilərin ildən-ilə çoxalmasına, turizm fəaliyyətinin genişlənməsinə şərait yaratmışdır. Azərbaycan Respublikasının Prezidenti tərəfindən 2011-ci il ölkəmizdə "Turizm İli" elan edilmişdir. Ötən müddətdə Bakı ilə yanaşı, regionlarda da otellərin və istirahət mərkəzlərinin istifadəyə verilməsi turizmin inkişafına geniş imkanlar yaratmışdır. 2003-cü ildə ölkədə mehmanxana və mehmanxana tipli müəssisələrin sayı cəmi 96 olduğu halda, 2004-2017-ci illər ərzində belə obyektlərin sayı artaraq 550-yə çatmışdır ki, bunun da 400-ü regionlarda yerləşir.

Dünya ölkələri, xüsusilə Avropa İttifaqına üzv ölkələrlə birbaşa nəqliyyat əlaqələri genişlənmiş, Bakı-Tbilisi-Ceyhan (BTC) neft ixrac kəməri və Bakı-Tbilisi-Ərzurum qaz ixrac kəməri dünyada enerji təhlükəsizliyinin təmin olunmasına layiqli töhfələr vermişdir. Regionun və Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında müstəsna əhəmiyyəti olan "Cənub Qaz Dəhlizi"nin tərkib hissəsi olan TANAP və TAP layihələri, həmçinin "Şahdəniz-2" layihəsi üzrə yekun investisiya qərarının imzalanması xüsusi olaraq qeyd edilməlidir. Bu layihələr üzrə işlərin çox hissəsi artıq icra olunmuşdur.

İnkişaf edən infrastruktur sahələrindən biri kimi nəqliyyat sektoruna irihəcmli investisiyaların yönəldilməsi nəticəsində hava limanlarının, körpülərin, tunellərin, yol qovşaqlarının tikilməsi, yeni avtomobil və dəmir yollarının çəkilməsi, yenidən qurulması və s. işlər davam etdirilmişdir.

Tranzit potensialının reallaşdırılması istiqamətində də irimiqyaslı layihələr həyata keçirilmiş, o cümlədən Avropa-Qafqaz-Asiya (TRASECA) nəqliyyat dəhlizinin fəaliyyəti güclənmiş, Bakı-Tbilisi-Qars dəmir yolu istismara verilmiş, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kompleksində Ro-Ro terminalının açılışı olmuş, Şimal-Cənub, Şərq-Qərb nəqliyyat dəhlizləri üzrə magistral yolların tikintisi layihələri uğurla davam etdirilmişdir.

Ölkənin tranzit potensialından daha səmərəli şəkildə yararlanmaq məqsədi ilə dövlət səviyyəsində institusional islahatların aparılmasına ehtiyac yaranmışdır. Məhz bu siyasətin davamı olaraq, Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurası yaradılmışdır. Ölkə ərazisindən keçən nəqliyyat dəhlizlərinin təşviqi, özəl şirkətlərlə dövlət orqanlarının əlaqələndirilməsi, tariflərin optimallaşdırılması və tranzit prosedurlarının sadələşdirilməsi istiqamətində işlərin aparılması Koordinasiya Şurasına həvalə edilmişdir. Ölkənin tranzit cəlbediciliyinin artırılması istiqamətində Koordinasiya Şurası tərəfindən bir sıra mühüm tədbirlər görülmüşdür. Belə ki, dəhlizin rəqabətqabiliyyətliliyinin artırılması məqsədilə region ölkələri arasında koordinasiya gücləndirilmiş, tranzit müddətləri qısaldılmış və prosedurlar təkmilləşdirilərək optimallaşdırılmış tarif siyasətinə başlanmışdır.

İqtisadiyyatın şaxələndirilməsi və sənayenin modernləşdirilməsi istiqamətində mühüm layihələrdən biri telekommunikasiya və Yer səthinin müşahidəsi peykləri olan "Azerspace" və "Azersky"ın istismara verilməsi olmuşdur.

Neft sektorundan sonra prioritet sahələrdən biri hesab olunan və son illər ölkənin sosial-iqtisadi həyatında mühüm rol oynayan rabitə və informasiya texnologiyaları sahəsinin inkişafında 11,3 dəfə artıma nail olunmuşdur. Son 15 ildə regionlarda 1600-dən çox ATS, 1000-dən çox poçt binası tikilmiş və ya əsaslı təmir edilmişdir. 2013-cü il ölkəmizdə "İnformasiya-kommunikasiya texnologiyaları İli" elan edilmişdir.

Əhalinin dərman vasitələri ilə optimal qiymətlərlə etibarlı təchizatı sosial və iqtisadi baxımdan mühüm əhəmiyyət kəsb edir. Dərman vasitələri bazarında yaranmış xaotik vəziyyətin aradan qaldırılması və bu sahəyə nəzarətin gücləndirilməsi ilə bağlı ölkə başçısının müvafiq tapşırıqlarından sonra qanunvericiliyə dəyişikliklər edilmiş və 2015-ci ilin ortalarından etibarən ölkədə dərman vasitələ-

rinin qiymətlərinin tənzimlənməsinə başlanılmışdır. Tənzimləmə prosesi intensiv şəkildə davam etdirilmiş, dövlət qeydiyyatına alınmış 11 minə yaxın dərman vasitəsinin qiymətləri təsdiq edilmişdir. Nəticədə, süni qiymət artımının və dərman vasitələrinin qiymətləri ilə manipulyasiyaların qarşısı alınmış, dərman vasitələri bazarında şəffaflıq, ictimai və dövlət nəzarəti təmin edilmişdir.

Ölkə başçısının tapşırığına uyğun olaraq, 2017-ci ildən etibarən icbari tibbi sığorta sisteminin tətbiqi ilə əlaqədar pilot layihənin icrasına başlanılmış və sığortanın baza zərfinə 1800-dən çox tibbi xidmət daxil edilmişdir.

Azərbaycanda iqtisadi inkişaf bazar münasibətlərinə əsaslansa da, o, həm də sosial ədalət prinsipi ilə tamamlanır. Yeni pensiya və sosial müdafiə sisteminə keçid, ölkə vətəndaşlarının ipoteka kreditləri ilə təmin edilməsi və 2016-cı ildə yaradılmış Mənzil İnşaatı Dövlət Agentliyinin (MİDA) xətti ilə sosial mənzillərin tikilərək ehtiyacı olanlara verilməsinin nəzərdə tutulması dövlətin sosial siyasətində keyfiyyət dəyişikliklərini əks etdirir.

Azərbaycanın sosial-iqtisadi inkişaf sahəsində əldə etdiyi nəticələr beynəlxalq hesabatlarda da əksini tapmış, müxtəlif meyarlar üzrə reytinq cədvəllərində ölkəmizin mövqeyi əhəmiyyətli dərəcədə yaxşılaşmışdır. Bu, Prezident İlham Əliyev tərəfindən həyata keçirilən iqtisadi və institusional islahatlara beynəlxalq təşkilatların verdiyi yüksək qiymətdir.

"Doing Business" hesabatına əsasən Azərbaycan 2017-ci ildə 190 ölkə arasında 57-ci pillədə, Davos İqtisadi Forumunun "Qlobal Rəqabətədavamlılıq" hesabatında isə 35-ci pillədə qərarlaşmışdır. Eyni zamanda, sonuncu hesabata əsasən "Siyasətçilərə ictimai etimad" adlanan indikator üzrə Azərbaycan dünyada 20-ci pilləyə yüksəlmişdir. Bu isə iqtidara xalqın böyük etimadını səciyyələndirən mühüm göstəricidir.

İndi ölkəmizdə iqtisadi liberallaşmanın, struktur islahatlarının yeni mərhələsi başlanır. Bu mərhələdə əsas vəzifə səmərəli iqtisadiyyatın qurulmasından, daha sağlam iqtisadi bazaya əsaslanan təsirli sosial siyasətin həyata keçirilməsindən ibarətdir. Nəzərə almalıyıq ki, "Ən yaxşı sosial siyasət düzgün iqtisadi siyasətdir" tezisini əsas götürmüş Azərbaycan bir çox Şərqi Avropa ölkələri kimi iqtisadi transformasiya dövrünü uğurla başa çatdırmışdır.

"Bundan sonra bizim qarşımızda duran əsas məsələ qeyri-neft sektorunun inkişafı və iqtisadiyyatın səmərəliliyinin təmin edilməsidir" fikrini Prezident İlham Əliyev heç də təsadüfən qeyd etməmişdir. Bəli! Sosial siyasət yalnız səmərəli iqtisadiyyata əsaslandıqda uzunmüddətli təsir gücünə malik olur. Bu baxımdan son illər həyata keçirilən liberallaşdırma tədbirləri, xüsusilə də institusional islahatlar ölkə iqtisadiyyatında ciddi keyfiyyət dəyişiklikləri kimi qiymətləndirilməlidir.

Bazar iqtisadiyyatı yolunu seçmiş ölkələr öz rəqabətqabiliyyətliliyini davamlı dövlət proteksionizmi, ucuz enerji resursları hesabına təmin edə bilməz. Bütün bunlar idman yarışlarında olduğu kimi, iqtisadiyyat üçün də qısamüddətli "dopinq effekti" verir. Biz iqtisadiyyatımızın rəqabətqabiliyyətliliyini yalnız struktur dəyişiklikləri, texnoloji yeniləşmə vasitəsilə artıra bilərik.

Azərbaycanda iqtisadi inkişafın yeni mərhələsi qeyri-neft sektorunun və sahibkarlığın inkişaf etdirilməsi, yoxsulluq səviyyəsinin azaldılması, çoxsaylı iş yerlərinin açılması ilə xarakterizə olunur. Eyni zamanda, regionlarımız inkişaf etdirilir və bu da əyalətlərdə iqtisadi fəallığın yüksəlməsi ilə müşayiət olunur. Dövlət investisiyaları vasitəsilə infrastruktur obyektlərimiz modernləşdirilir. Xidmət, tikinti, rabitə və informasiya texnologiyaları, nəqliyyat, turizm, emal sektoru qeyri-neft sektorunun potensial sahələri kimi inkişaf etməkdədir. Kənd təsərrüfatının dövlət tərəfindən dəstəklənməsi siyasəti davamlı xarakter daşıyır.

Yeniləşmənin bütün istiqamətlər üzrə uğurla reallaşdırılması ölkənin inkişafı ilə bağlı konkret hədəflərin müəyyən edilməsindən bilavasitə asılıdır. Azərbaycan özünün perspektiv inkişaf xəttini artıq müəyyən edib. Bu, qəbul edilmiş dövlət proqramlarında, strateji yol xəritələrində bir daha öz əksini tapır. Həmin sənədlər ölkəmizdə proqramlı idarəetməni səciyyələndirməklə yanaşı, həm də Prezident İlham Əliyevin siyasi, sosial-iqtisadi və institusional inkişafla bağlı hədəflərini özündə ehtiva edir.

Ölkəmizin sosial-iqtisadi inkişaf sahəsində əldə etdiyi uğurların davamlılığını təmin etmək məqsədi ilə "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası qəbul edilmişdir. Konsepsiya çərçivəsində qeyri-neft sektorunun inkişafı, nəqliyyat, tranzit və logistika infrastrukturunun təkmilləşdirilməsi, bölgələrin tarazlı inkişafı, informasiya cəmiyyətinə keçidin təmin edilməsi, insan kapitalının inkişafı və səmərəli sosial müdafiə sisteminin qurulması, institusional potensialın gücləndirilməsi, vətəndaş cəmiyyətinin inkişafı, ətraf mühitin qorunması və s. məsələləri əhatə edən 53 sənəd təsdiq edilərək icrası təmin olunmaqdadır.

Yeni mərhələdə iqtisadi siyasəti müəyyən edərkən müasir dövrün çağırışları nəzərə alınmalı, yerli istehsalın stimullaşdırılması istiqamətində tədbirlər görülməli, dövlət xərcləri restrukturizasiya edilməli, gəlirlərin yenidən bölgüsünün səmərəli mexanizmi yaradılmalıdır. 2016-cı ildə yaradılmış Maliyyə Sabitliyi Şurası makroiqtisadi sabitliyin təmin edilməsi üzrə tədbirləri səmərəli koordinasiya etməlidir.

Makroiqtisadi göstəricilərin yaxşılaşdırılması 1990-cı illərin əvvəllərində itirdiyimiz iqtisadi potensialın bərpa edilməsi baxımından əhəmiyyətli olsa da, o, iqtisadi siyasətin son məqsədi və əsas hədəfi kimi qəbul edilməməlidir. İqtisadi islahatların indiki mərhələsində qarşıda duran əsas vəzifə iqtisadiyyatda kəmiyyət dəyişikliklərindən keyfiyyət dəyişikliklərinə keçidi təmin etməkdən ibarət olmalıdır.

Prezident İlham Əliyevin rəhbərliyi ilə sosial-iqtisadi və siyasi sahədə həyata keçirilən genişmiqyaslı tədbirlər ölkəmizin hərtərəfli inkişafı üçün böyük imkanlar və yeni-yeni perspektivlər açır. Heç şübhəsiz, Azərbaycanın bugünkü inkişafı onu ortamüddətli perspektivdə yüksək həyat səviyyəsinə, güclü iqtisadiyyata malik ölkələr sırasına daxil edəcəkdir.

**AZƏRBAYCANIN İQTİSADİ İNKİŞAF VEKTORU: 2003-2017-Cİ İLLƏR**

2003-2017-ci illərdə ümumi daxili məhsul (ÜDM) nominal ifadədə 9,8 dəfə, real ifadədə 3,2 dəfə artmışdır. Bu dövrdə ölkədə orta illik iqtisadi artım 9,4 faiz, o cümlədən qeyri-neft sektorunda 8,2 faiz təşkil etmişdir. Sosial-iqtisadi sahədə həyata keçirilən tədbirlər iqtisadi artımın iqtisadi inkişaf amilinə çevrilməsinə yönəldilmişdir.

İqtisadiyyatın neft sektorundan asılılığının azaldılması və sənayenin hərtərəfli inkişafının təmin edilməsi iqtisadi siyasətin öncül istiqamətlərindən biri kimi müəyyən edilib. Ölkə iqtisadiyyatında neft sektoru həlledici rol oynasa da, son illər qeyri-neft sektorunun fəaliyyətində əhəmiyyətli canlanma hiss olunur. 2003-2017-ci illərdə sənaye istehsalı 2,6 dəfə, qeyri-neft sektoru üzrə ÜDM 2,8 dəfə, qeyri-neft sənayesi 2,2 dəfə, kənd təsərrüfatı 1,7 dəfə artmışdır.

İqtisadiyyatın liberallaşdırılması və sahibkarlığın inkişaf etdirilməsi nəticəsində özəl sektorun rolu əhəmiyyətli dərəcədə yüksəlmişdir. Belə ki, ÜDM-də özəl bölmənin payı 2003-cü ildə 74 faiz təşkil edirdisə, 2017-ci ildə bu rəqəm 84 faiz olmuşdur.

Maliyyə imkanlarının artması iqtisadi inkişafın yeni mərhələsinin xarakterik xüsusiyyətlərindən biridir. Bu, özünü dövlət büdcəsinin, strateji valyuta ehtiyatlarının həcmində göstərir. Son 15 il ərzində dövlət büdcəsinin gəlirləri 16,7 dəfə artaraq, 2003-cü ildəki 1,2 mlrd. manatdan 2018-ci ildə 20,1 mlrd. manata çatmışdır. Qeyri-neft sektorunun inkişafı büdcə gəlirlərinin formalaşmasına da öz təsirini göstərməkdədir. Belə ki, 2017-ci ildə dövlət büdcəsinin qeyri-neft sektoru üzrə gəlirləri 8,6 mlrd. manat olmuşdur ki, bu da 2003-cü illə müqayisədə 11,4 dəfə çoxdur.

Əsas kapitala yönəldilmiş vəsaitlər 2003-2017-ci illər ərzində 3,8 mlrd. manatdan 16,8 mlrd. manata çatmışdır. Bu isə real ifadədə 3 dəfə artım deməkdir. Təcrübə göstərir ki, neftlə zəngin olan bir çox ölkələr əldə olunan gəlirlərdən investisiya təyinatlı deyil, cari istehlak məqsədləri üçün istifadə etdiklərinə görə rəqabətqabiliyyətli və səmərəli iqtisadiyyat qura bilməmişlər.

2003-cü illə müqayisədə 2018-ci ildə dövlət büdcəsi xərclərinin tərkib hissəsi olan dövlət əsaslı vəsait qoyuluşu xərcləri 55,5 dəfə artaraq, 86,9 milyon manatdan 4,8 mlrd. manata çatmışdır. Bu isə genişmiqyaslı infrastruktur layihələrinin maliyyələşdirilməsi deməkdir.

Dünyada investisiya layihələrinin bahalaşdığı bir şəraitdə neft dollarlarının yalnız depozit şəklində saxlanılması təklifi populizmdən başqa bir şey deyil. İnfrastruktur xərcləri neft gəlirlərinin yenidən bölgüsünü təmin etməklə, eyni zamanda, təkcə bugünkü deyil, həm də gələcək nəsillər üçün yatırılan kapital kimi dəyərləndirilməlidir.

Strateji valyuta ehtiyatları 26,2 dəfə artaraq, 2002-ci ildəki 1,6 mlrd. ABŞ dollarından 2017-ci ildə 42 mlrd. ABŞ dollarına yüksəlmişdir ki, bu da ÜDM-in həcmini üstələyir. 1990-cı illərin əvvəllərində Azərbaycanın valyuta ehtiyatlarının 90-95 faizi əsasən BVF və Dünya Bankının kreditləri hesabına formalaşırdısa, indi bu ehtiyatlar əsasən ixracdan əldə edilən valyuta gəlirlərindən ibarətdir. Ölkəmizin ixrac imkanlarının artması valyuta ehtiyatlarının formalaşmasında həlledici rol oynayır.

Azərbaycanın xarici dövlət borcunun ÜDM-ə nisbəti 25 faizdən azdır ki, bu da dünyada ən yaxşı göstəricilərdən sayılır. Qeyd edək ki, iqtisadi təhlükəsizlik baxımından kritik hədd 40 faizdir.

2003-2017-ci illərdə iqtisadiyyata kredit qoyuluşları 670 milyon manatdan 11,7 mlrd. manata çatmışdır. Biz son 15 ildə qazandığımız uğurlarla kifayətlənməməliyik. Əksinə, nailiyyətlərimiz yaxın gələcəkdə daha miqyaslı işlərin həyata keçirilməsi üçün baza rolunu oynamalıdır. İlk növbədə, iqtisadiyyatın rəqabətqabiliyyətliliyi artırılmalı, insan inkişafı indeksi yüksəldilməli, ölkəmizin innovasiyalı inkişafı təmin edilməli, modernləşmə prosesinə əngəl ola biləcək institusional maneələr aradan qaldırılmalıdır.

**İQTİSADİYYAT VƏ SİYASƏT**

Hər bir ölkədə iqtisadi inkişaf siyasi amillərdən bilavasitə asılıdır. Azərbaycanda mövcud siyasi mühit iqtisadi inkişaf üçün müsbət təsirə malikdir. Belə ki, güclü dövlət və güclü siyasi hakimiyyət milli iqtisadiyyatını formalaşdıran bir ölkə üçün prinsipial əhəmiyyət kəsb edir. İctimai-siyasi sabitliyin qorunub saxlanılması ölkəmiz üçün bu gün də imkanlar pəncərəsi kimi çıxış edir. Azərbaycan etibarlı tərəfdaş kimi mövqeyini gücləndirir. Balanslaşdırılmış uğurlu xarici siyasət iki və çoxtərəfli iqtisadi əlaqələri genişləndirməyə əlverişli şərait yaradır.

Kommunizm barədə utopiyaların hökmran olduğu dövrdə "Siyasət iqtisadiyyatın təmərküzləşmiş ifadəsidir" tezisi sovet ideoloqları tərəfindən tez-tez səsləndirilsə də, əslində o, reallığı əks etdirmirdi. Belə ki, siyasət iqtisadiyyatın deyil, əksinə, iqtisadiyyat siyasətin təmərküzləşmiş ifadəsinə çevrilmişdir. Sosializm dövründə iqtisadiyyat büsbütün siyasiləşdirilmiş və ideologiyalaşdırılmışdı. SSRİ kimi nəhəng dövlətin iqtisadiyyatı, o cümlədən sənayesi, sosial təminat sistemi, büdcəsi, xarici ticarəti sovet ideologiyasının başlıca ehkam və oriyentirlərinə tabe etdirilərək formalaşdırılırdı. Əsas məqsədi dünyanın ayrı-ayrı ölkələrinə sosializm "ixrac" etməkdən ibarət olmuş bu "super" dövlətin iqtisadi dayaqlarını isə hərbi-sənaye kompleksi və "müttəfiq" respublikaların təbii ehtiyatları təşkil edirdi. Belə bir halda siyasi və iqtisadi sərhədlərin, bir qayda olaraq, "bağlı" olması ittifaq dövləti üçün heç bir problem yaratmırdı. Keçmiş SSRİ-nin dünya təsərrüfat sistemindən təcrid olunması və beynəlxalq əmək bölgüsündə iştirak etməməsi nəticəsində yaranan çətinliklər "müttəfiq" respublikaların hesabına aradan qaldırılırdı...

Tarixi inkişafın indiki mərhələsində siyasətlə iqtisadiyyatın bir-birindən ayrılması və ya onların qarşı-qarşıya qoyulması yolverilməzdir. Çünki siyasətlə iqtisadiyyat arasında sıx əlaqə mövcuddur. Belə ki, indiki dövrdə siyasətimizə iqtisadi, iqtisadiyyatımıza isə siyasi prizmadan yanaşıb qiymət verməliyik. Azərbaycanın keçdiyi tarixi inkişaf yolu, bu dövrdə iqtisadiyyat və siyasət arasında əlaqənin forma və xüsusiyyətləri də bunu bir daha təsdiq edir. Siyasət iqtisadiyyatın fövqündə dayanmadığı kimi, iqtisadiyyat da siyasətin fövqündə dayana bilməz.




Nəzərə almalıyıq ki, dünyanın inkişaf etməkdə olan bir sıra ölkələri, o cümlədən Asiya "pələngləri" iqtisadi tərəqqiyə bazar iqtisadiyyatına keçməklə nail olmuşlar. Lakin bu ölkələrdə azad iqtisadiyyatın inkişafına yönəldilmiş radikal iqtisadi islahatlar kursunun ardıcıl davam etdirilməsi güclü siyasi hakimiyyət sayəsində mümkün olmuşdur. Azərbaycanda da iqtisadi transformasiya prosesinin dönməz xarakter almasında və uğurla başa çatmasında siyasi hakimiyyətin gücü və iradəsi həlledici rol oynamışdır.

Ölkə rəhbərliyinin həyata keçirdiyi balanslaşdırılmış xarici siyasət kursu Azərbaycanın dövlət maraqlarının qorunmasında mühüm rol oynamış, ölkəmizin beynəlxalq əməkdaşlıq sahəsində fəaliyyət imkanlarını xeyli genişləndirmişdir. Müəyyən edilmiş strategiya isə Azərbaycanın müstəqil dövlət kimi iqtisadi dayaqlarını möhkəmləndirmişdir.

Əgər ilkin mərhələdə ölkə rəhbərliyinin siyasi kursu və diplomatik fəaliyyəti iqtisadi maraqlarımızın reallaşmasına xidmət edirdisə, indi iqtisadi sahədə əldə edilən uğurlar, həyata keçirilən iqtisadi diplomatiya ölkəmizin siyasi-strateji maraqlarına xidmət etməkdədir. Bu gün Azərbaycanda iqtisadiyyat və siyasət bir-birindən ayrılmazdır və çox uğurlu bir şəkildə tamamlanır. Prezident İlham Əliyevin iqtisadi quruculuq sahəsindəki fəaliyyəti strateji xarakter daşıyır və Azərbaycanın sosial-iqtisadi inkişafı üçün uzunmüddətli perspektivlər açır.

Dövlət quruculuğunun və iqtisadi islahatların ardıcıl həyata keçirilməsinin başlıca şərti ölkədə ictimai-siyasi sabitliyin qorunub saxlanılmasıdır. Biz hesab edirik ki, ölkə vətəndaşlarının böyük əksəriyyəti həm də sabitliyin qorunub saxlanılması naminə öz seçimini davamlı olaraq İlham Əliyevlə bağlayırlar. Ötən 15 il bu seçimin doğru olduğunu bir daha təsdiq edir.

Prezident İlham Əliyev 2018-ci il martın 19-da Novruz şənliyindəki çıxışında sabitlik məsələsinə toxunaraq demişdir: "Azərbaycan Novruzu gözəl nəticələrlə qarşılayır. Ölkəmiz hərtərəfli inkişaf edir. Aparılan quruculuq işləri ölkəmizi gücləndirir, Azərbaycanın beynəlxalq nüfuzunu artırır. Daxili vəziyyət sabitdir. Bu sabitliyin əsas təminatçısı Azərbaycan xalqıdır. Xalq-iqtidar vəhdəti sabitliyin əsas təminatçısıdır. Daxili siyasətlə bağlı görülən işlər, aparılan islahatlar öz gözəl nəticələrini verməkdədir. Dünyada gedən proseslər bir daha onu göstərir ki, ancaq sabit olan ölkələr uğurla inkişaf edə bilər. Ancaq sabit olan ölkələrə xarici sərmayə qoyulur, insanlar rahat, təhlükəsizlik şəraitində yaşayırlar. Bu gün dünyanın müxtəlif yerlərində sabitlik pozulur, qanlı toqquşmalar baş verir, müharibələr alovlanır, yeni risklər yaranır. Bu gün dünya gündəliyinin əsas məsələsi məhz təhlükəsizlik məsələləridir. Azərbaycan bu istiqamətdə apardığı siyasətlə dünyada böyük rəğbət qazanmış ölkələrdən biridir. Ölkəmizdə daxili risklər üçün heç bir mənbə yoxdur. Xarici risklərdən isə biz özümüzü qoruyuruq və bundan sonra da qoruyacağıq, Azərbaycan xalqının rahat yaşamasını təmin edəcəyik"[6].

Xarici ekspertlər, dünyanın aparıcı siyasi təhlil mərkəzləri Azərbaycanda müşahidə edilən sabitliyi, dövlətimizin beynəlxalq əməkdaşlıq sahəsində fəaliyyətinin genişlənməsini, ölkənin siyasi rəhbərliyinin çevik və tarazlı diplomatiyaya malik olmasını hər zaman "imkanlar pəncərəsi" kimi dəyərləndirmişlər.

Həyata keçirilən genişmiqyaslı sosial-iqtisadi quruculuq işləri, dövlət proqramlarının vaxtında icrası, strateji layihələrin uğurla başa çatdırılması İlham Əliyevin dövlət başçısı kimi yaranmış imkanlardan səmərəli istifadə edə bilmə bacarığını və məharətini nümayiş etdirdi. Əsaslı iqtisadi dəyişikliklər hər şeydən əvvəl cəsarətli siyasi qərarların qəbul edilməsindən, siyasi və ideoloji oriyentirlərin yeni sosial-iqtisadi şəraitə uyğunlaşdırılmasından asılıdır. Siyasi impuls olmadan iqtisadi və institusional islahatları həyata keçirmək mümkün deyil.

İqtisadiyyat və siyasətin qarşılıqlı əlaqəsinə dair Prezident İlham Əliyevin fikirləri xüsusi olaraq maraq doğurur: "İqtisadi inkişaf, siyasi inkişaf, cəmiyyətin demokratikləşməsi prosesi - bunlar hamısı paralel getməlidir... İqtisadi islahatlar və siyasi islahatlar ölkəmizin inkişafı üçün çox möhkəm zəmin yaradır. Biz bu iki amili bərabər, paralel şəkildə həyata keçiririk və bu gözəl zəmin əsasında güclü dövlət quruculuğu prosesi gedir... İndi dünyada gedən proseslər onu göstərir ki, iqtisadi cəhətdən inkişaf etmiş ölkələr dünyada öz yerini daha da möhkəm tuturlar, öz siyasətini daha da cəsarətlə aparırlar... İqtisadi müstəqillik ölkəmizin siyasi müstəqilliyinə öz töhfəsini verir. İqtisadi cəhətdən heç kimdən asılı olmayan ölkə öz siyasətini də müstəqil şəkildə apara bilər və Azərbaycanın timsalında biz bunu görürük..."[7].

Dünya təcrübəsi də göstərir ki, azad iqtisadiyyatın inkişafına yönəldilmiş islahatlar kursunun ardıcıl davam etdirilməsi güclü siyasi hakimiyyətin sayəsində mümkün olur. Burada güclü hakimiyyət dedikdə güclü dövlət mexanizmi ilə yanaşı, həm də vətəndaşların ölkə rəhbərliyinə inam və etimadı başa düşülür. Ölkəmizdə də iqtisadi transformasiya prosesinin dönməz xarakter almasında Heydər Əliyevin qətiyyəti, sonrakı mərhələdə isə Prezident İlham Əliyevin iradəsi və prinsipiallığı, xalqın ona inamı və davamlı dəstəyi həlledici rol oynamışdır.

Keçmiş ittifaq respublikalarının əksəriyyətindən fərqli olaraq, Azərbaycanda siyasi hakimiyyətin sabitliyi və onun davamlı xarakteri təmin edilmişdir. Bir tərəfdən dövlət idarəçiliyi sahəsində sabitliyin qorunub saxlanılması, digər tərəfdən də Azərbaycan Respublikası Prezidentinin iqtisadi islahatların həyata keçirilməsinə verdiyi siyasi dəstək iqtisadi transformasiya prosesinin sürətləndirilməsi və dövlət idarəetmə aparatında radikal dəyişikliklərin aparılması üçün əlverişli zəmin yaratmışdır.

İqtisadi diplomatiyanın hansı imkanlara malik olduğunu peşəkar bir səviyyədə qiymətləndirən Prezident İlham Əliyevin ölkə iqtisadiyyatının inkişafı məsələlərinə böyük önəm verməsi heç də təsadüfi deyil. Cənab Prezident müsahibələrinin birində bildirmişdir: "Hər şey iqtisadiyyat üzərində qurulur. Azərbaycanın iqtisadiyyatı möhkəm olarsa, bütün məsələləri həll etmək imkanımız olacaqdır"[8]. Dövlət başçısının iqtisadi məsələlərə peşəkar və kompetent yanaşması, milli maraqlarımızı hər zaman önə çəkməsi iqtisadi diplomatiyanın təsir gücünü daha da artırır.

Azərbaycan Prezidentinin ötən dövrdəki fəaliyyətinə ümumi nəzər yetirsək, ölkəmizin strateji xarakterli bir çox problemlərinin həllində onun iqtisadi diplomatiyanın imkanlarından səmərəli istifadə etdiyini görərik. İlham Əliyev bu zaman Azərbaycanın potensialını, cəlb olunduğu strateji layihələrin əhəmiyyətini, gözlənilən inkişaf perspektivlərimizi nəzərə alır.

Fikrimizcə, Azərbaycanda iqtisadi diplomatiyanın əsası neft strategiyasının hazırlanması və "Əsrin müqaviləsi"nin imzalanması ilə qoyuldu. Neft strategiyasının ardıcıl həyata keçirilməsi isə iqtisadi diplomatiya ənənələrinin inkişafına xidmət etdi. Bu sahədə Prezident İlham Əliyevin xüsusi rolunu qeyd etmək lazımdır.

Müasir dünya dövlətləri bir-birləri ilə artıq hərbi deyil, çox hallarda məhz iqtisadi üsul və vasitələrlə mübarizə aparırlar. Azərbaycanın iqtisadi cəhətdən geniş manevretmə imkanları ona gələcəkdə bəzi dövlətlərə öz şərtlərini diktə etmək üçün şərait yaradır. Prezident İlham Əliyevin müasir dünya düzəninin iqtisadi və siyasi "oyun qaydaları"na dərindən bələd olması ölkəmizin maraqlarının bütün səviyyələrdə etibarlı şəkildə qorunmasına təminat verir.


**(davamı gələn sayımızda)**

# "Ağ Şəhər" layihəsi üzrə enerji təminatı ilə bağlı işlərin 60 faizi yekunlaşıb"



Bunu aprelin 9-da Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında çıxışı zamanı "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin sədri Baba Rzayev deyib.

B.Rzayev qeyd edib ki, aparılan islahatlar nəticəsində iqtisadiyyatımızın bütün sahələrində olduğu kimi, elektroenergetikanın sürətli inkişafı təmin edilib, yeni tikilən müasir tipli elektrik stansiyaları hesabına generasiya gücləri 2400 MVt-a qədər artırılaraq 6400 MVt-a çatdırılıb. Nəticədə, ölkəmiz daxili enerji tələbatını ödəməklə yanaşı, elektrik enerjisi idxal edən ölkədən ixrac edən ölkəyə çevrilib.

O bildirib ki, dövlət başçısının energetika sahəsində müəyyən etdiyi uğurlu strategiyanın davamı olaraq yaradılmış "Azərişıq" tərəfindən "Paylayıcı elektrik şəbəkələrinin yenidənqurulması və inkişaf etdirilməsi məqsədilə 2016-2025-ci illər üzrə Master Plan" hazırlanaraq təsdiqlənib və icrası uğurla davam etdirilir:

"Ötən illər ərzində 44 ədəd 110 kV-luq, 167 ədəd 35 kV-luq yarımstansiyalar və 5 mindən çox transformator məntəqəsi inşa olunub, 54 min kilometr hava və kabel xətti çəkilib, 1 milyon 600 mindən artıq müasir tipli elektron sayğaclar quraşdırılıb. Görülmüş tədbirlər nəticəsində regional şəbəkələrdə xroniki hal almış ifrat yüklənmələr, qəza açılmaları minimuma endirilib, şəbəkələrin güc qəbuletmə qabiliyyəti iki dəfədən çox artırılıb, istehlakçıların, xüsusən də meqalayihələrin və mötəbər beynəlxalq tədbirlərin stabil enerji təchizatı təmin olunub".

ASC sədri bildirib ki, texniki itkilər Bakı şəhəri üzrə 7,8 faizə, regionlar üzrə 11,4 faizə endirilməklə, "Azərişıq" üzrə 9,6 faiz təşkil edib.

B.Rzayev əlavə edib ki, Bakı şəhərinin inkişafına uyğun gözlənilən güc artımının təmin olunması üçün 22 ədəd 110 kV-luq, 77 ədəd 35 kV-luq, 2 min ədəd 10 kV-luq transformator məntəqələri inşa edilib, 29 min kilometr elektrik xətləri çəkilib.

Onun sözlərinə görə, Füzuli meydanı ətrafı və "Sovetski" adlanan ərazidə inşa ediləcək çoxsaylı binaların, yol infrastrukturunun enerji tələbatının ödənilməsi üçün əlavə güc mənbəyi olmadığından, bir ədəd 110 kV-luq yarımstansiyanın və 110 kV-luq ikidövrəli kabel xəttinin çəkilməsi nəzərdə tutulur.

"Regionların inkişafına dair 2014-2018-ci illər üzrə Dövlət Proqramı" və qeyri-neft sektorunun inkişafı ilə bağlı regionlarda irimiqyaslı tədbirlər həyata keçirilir. Kənd təsərrüfatının və meliorativ tədbirlərlə bağlı enerji təchizatının yaxşılaşdırılması üçün 5 ədəd 110 kV-luq, 17 ədəd 35 kV-luq yarımstansiyalar tikilib, 110 kilometrdən çox elektrik xətləri çəkilib və 450 ədəd komplekt transformator məntəqəsi quraşdırılıb. Bu sahədə işlər davam etdirilir.

ASC sədri deyib ki, bundan əlavə, 10 ədəd aqroparkın şəbəkələrə qoşulması təmin olunub, Hacıqabul rayonunda 110 kV-luq "Qarasu" və 4 ədəd 35 kV-luq yarımstansiyalar tikilib, 26 kilometr 2 dövrəli 110 kV-luq və 100 kilometr 35 kV-luq elektrik verilişi xətləri çəkilib.

# "Bakının 81,5 faizi fasiləsiz içməli su ilə təmin edilir"



"Ölkə ərazisində 30-dan çox içməli su mənbələri tikilərək istismara verilib. Oğuz-Qəbələ-Bakı su kəməri, Ceyranbatan ultrasüzgəcli sutəmizləyici qurğular kompleksi, Mingəçevir, Quba, Xanbulan sutəmizləyici, Külüllü, Qızılqaya, Göygöl suqəbuledici qurğuları, Şirvan-Muğan, Sabirabad-Saatlı qrup su kəmərləri və digər lokal mənbələr Azərbaycan vətəndaşlarının sağlam həyatı baxımından ən böyük töhfələrdir".

Bunu aprelin 9-da "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynov Nazirlər Kabinetinin 2018-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında bildirib.

Onun sözlərinə görə, su və kanalizasiya layihələrinin icrasına başlanılıb, 50 şəhər və rayon mərkəzinin 23-də su və kanalizasiya şəbəkələrinin, 10-da isə su şəbəkələrinin tikintisi başa çatdırılıb. Şəhər mərkəzləri ilə yanaşı, əhalisinin sayı ümumilikdə 630 min nəfər olan 520 kənddə də layihələr icra edilib.

"Respublikanın 28 rayonunun 170 kəndində başlanmış işlər bu ilin birinci rübündə tam başa çatdırılıb, 530 kilometr magistral və paylayıcı su xətləri çəkilib, əhalinin ümumi istifadəsi üçün 1432 bulaq quraşdırılıb. Bununla da 271 min nəfərin keyfiyyətli içməli suya çıxışı təmin edilib. Abşeron yarımadasının 18 qəsəbəsində başlanılmış işlər bu ilin yanvarında başa çatdırılıb. Görülmüş işlərin real nəticəsi olaraq, hazırda ölkə üzrə xidmət göstərilən əhalinin 67 faizi, Bakı şəhəri üzrə isə 81,5 faizi fasiləsiz içməli su ilə təmin edilir", - deyə Q.Hüseynov bildirib.

O, həmçinin qeyd edib ki, icra olunan layihələr çərçivəsində su şəbəkəsi ilə paralel kanalizasiya infrastrukturu, eyni zamanda, ekoloji tarazlığın təmin olunması və turizmin inkişafı baxımından xüsusi əhəmiyyət daşıyan tullantı sutəmizləyici qurğular inşa olunur:

"Xəzər dənizinə axıdılan tullantı sularının qarşısının alınması üçün 14 kilometr uzunluğunda Bayıl-Bibiheybət-Lökbatan, 15 kilometr uzunluğunda Novxanı-Sumqayıt kanalizasiya kollektorlarının inşası başa çatdırılıb, Bakı buxtasının sahili boyu mövcud xətlərin reabilitasiyası həyata keçirilib. Bununla da Dənizkənarı Milli Park, Dövlət Bayrağı Meydanı, Şıx, Novxanı və Sumqayıt çimərliklərinin əhatə etdiyi böyük bir ərazidə tullantı sularının dənizə axıdılmasının qarşısı alınıb. Layihə çərçivəsində Böyükşor, Məhəmmədi, Kürdəxanı və Taşağıl göllərində yaradılmış infrastruktur su səviyyəsinin tənzimlənməsinə imkan yaradıb.

Q.Hüseynov deyib ki, bu il Ağdaş, Qəbələ, Daşkəsən, Xaçmaz, Xızı, Ağcabədi şəhərlərində su və kanalizasiya şəbəkələrinin, Astara şəhərində su şəbəkəsinin inşası başa çatdırılacaq.

# Sosial mənzillərin tikintisi üçün torpaq sahəsi müəyyənləşdirilib



Bunu aprelin 9-da Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında çıxışı zamanı Mənzil İnşaatı Dövlət Agentliyinin İdarə Heyətinin sədri Samir Nuriyev deyib.

S.Nuriyev bildirib ki, dünyada cərəyan edən proseslərin yeni çağırışlarına uyğunlaşmaq məqsədilə Azərbaycan Prezidentinin təşəbbüsü ilə həyata keçirilən geniş iqtisadi islahatlar çərçivəsində 2016-cı ildə yaradılmış Mənzil İnşaatı Dövlət Agentliyinin əsas məqsədi çoxmənzilli yaşayış binalarının tikilməsi və həmin binalardan müxtəlif sosial təbəqələrdən olan aztəminatlı, gənc ailələrə güzəştli şərtlərlə mənzillərin əldə edilməsi üçün imkanların yaradılması, onların mənzil-məişət şəraitinin yaxşılaşdırılmasıdır:

"Bu vəzifələri layiqincə yerinə yetirmək məqsədi ilə, ilk növbədə Agentliyin yüksəkixtisaslı mütəxəssislərdən ibarət işçi heyəti formalaşdırıldı, zəruri inzibati məsələlər həll olundu. Agentlik tərəfindən güzəştli mənzillərin tikintisi sahəsində mövcud olan dünya praktikası öyrənildi, Türkiyə, Sinqapur, Almaniya, Rusiya və bir çox digər ölkələrin bu sahədə fəaliyyət göstərən qurumlarının strukturu və iş prinsipləri təhlil edildi. Bu təcrübə nəzərə alınaraq Azərbaycanda sosial mənzillərin tikintisi işinin təşkil olunmasına başlanıldı. Bununla paralel olaraq, ilk layihələrin qısa müddət ərzində reallaşdırılmasını təmin etmək məqsədilə Zati-alilərinizin tapşırığına əsasən Agentliyə Bakı şəhərinin əvvəlcə Yasamal rayonunda sahəsi 11,6 hektar, daha sonra isə Suraxanı rayonunun Hövsan qəsəbəsində 20 hektar torpaq sahələri ayrıldı. Ayrılmış torpaq sahələrində, 2016-cı il dekabrın 24-də Agentliyin ilk layihəsi olan Yasamal Yaşayış Kompleksinin, 2017-ci il dekabrın 24-də isə Hövsan Yaşayış Kompleksinin təməli qoyuldu".

O qeyd edib ki, 29 çoxmənzilli yaşayış binasından ibarət olan Yasamal Yaşayış Kompleksində 1843 ailənin mənzillə təmin edilməsi planlaşdırılır. Hazırda kompleksdə tikinti işləri sürətlə davam edir.

S.Nuriyev əlavə edib ki, satışa çıxarılacaq güzəştli mənzillər yerləşdiyi ərazidə mövcud olan bazar qiymətlərindən aşağı qiymətə təklif olunmaqla yanaşı, Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun 30 ilədək uzunmüddətli güzəştli kreditinin alınması vasitəsilə əldə edilə bilər.

# Mikayıl Cabbarov: Vergilər Nazirliyi qabaqcıl beynəlxalq təcrübənin ölkəmizin vergi sistemində tətbiqinə çalışır

Vergilər Nazirliyi milli vergi qanunvericiliyinin və vergi inzibatçılığının təkmilləşdirilməsinə xüsusi önəm verir və bu sahədə mövcud olan qabaqcıl beynəlxalq təcrübənin ölkəmizin vergi sistemində tətbiqinə çalışır.

AZƏRTAC xəbər verir ki, bunu aprelin 17-də "Transfer qiymətlərinin müəyyən edilməsi və vergidən yayınma hallarına qarşı tədbirlərin işlənib hazırlanmasında Azərbaycan Respublikası Vergilər Nazirliyinə dəstək" üzrə "Tvinninq" layihəsinin açılış mərasimində vergilər naziri Mikayıl Cabbarov deyib.



Nazir qeyd edib ki, vergi sahəsində aparılan islahatlar əlverişli sahibkarlıq və investisiya mühitinin yaradılması, vergitutmanın optimallaşdırılması, vergi sisteminin daha da təkmilləşdirilməsi məqsədinə xidmət edir. Kommersiya əməliyyatlarında vergidən yayınma hallarına yol verilməsi risklərinin qarşısının alınması Vergilər Nazirliyinin fəaliyyətində prioritet istiqamətlərdəndir.

Tədbirdə çıxış edən Avropa İttifaqının (Aİ) Azərbaycan Respublikasındakı nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas Vergilər Nazirliyi ilə Aİ arasında ikitərəfli əməkdaşlığın mövcud vəziyyəti və perspektiv planları barədə məlumat verib.

Vurğulanıb ki, Azərbaycanda onlarla "Tvinninq" layihəsinin icrası uğurla başa çatıb, bəzi layihələr üzrə işlər isə davam etdirilir. "Transfer qiymətlərinin müəyyən edilməsi və vergidən yayınma hallarına qarşı tədbirlərin işlənib hazırlanmasında Azərbaycan Respublikası Vergilər Nazirliyinə dəstək" üzrə "Tvinninq" layihəsi Aİ ilə Azərbaycan arasında səmərəli əməkdaşlığa daha bir mühüm töhfə olacaq.

Tədbirdə Yunanıstanın Azərbaycan Respublikasındakı səfiri Nikolaos Kanellos, Beynəlxalq və Avropa İqtisadi Hüquq Mərkəzinin nümayəndəsi Elisavet Adamantidou, həmçinin "Tvinninq" layihəsinin rezident müşavirləri və layihə rəhbərləri çıxış ediblər.

Layihə ilə bağlı təqdimatda bildirilib ki, Avropa İttifaqının maliyyə dəstəyi ilə həyata keçirilən "Tvinninq" layihəsi transfer qiymətləndirməsinə dair qanunvericiliyin və praktiki məsələlərin inzibatçılığı, habelə transfer qiymətləndirməsi üzrə auditin tətbiqi və icra edilməsi sahələrində Avropa İttifaqı ölkələrinin uğurlu təcrübəsini öyrənməyə və gələcəkdə mövcud qaydaların daha da təkmilləşdirilməsinin təmin olunmasına xidmət edəcək.

Layihənin məqsədi transfer qiymətləndirməsi sahəsində audit prosesləri üçün effektiv resursların yaradılması və səmərəli auditin tətbiqi məqsədilə Azərbaycan Respublikası Vergilər Nazirliyinə dəstək verilməsidir.

Layihə üzrə 3 əsas nəticənin əldə olunması qarşıya məqsəd qoyulub. Bu məqsədlərə transfer qiymətləndirməsi sahəsində qanunvericiliyin Avropa İttifaqı standartlarına uyğunlaşdırılması, transfer qiymətləndirməsi üzrə inzibati nəzarət mexanizmlərinin yaradılması və bu sahədə Vergilər Nazirliyinin institusional potensialının artırılması daxildir.

Nəzərə çatdırılıb ki, müxtəlif vergitutma qaydaları olan ölkələrdə fəaliyyət göstərən yerli və xarici şirkətlərin apardıqları kommersiya əməliyyatlarında vergidən yayınma hallarına yol verilməsi risklərinin qarşısının alınması üçün ən yaxşı mexanizmlərdən biri transfer qiymətlərinə nəzarətdir. Transfer qiymətinin tətbiqinin məqsədi bir-biri ilə qarşılıqlı əlaqəli şəxslər tərəfindən həyata keçirilən əməliyyatların bazar qiymətləri prinsipinə uyğun aparılmasına nəzarət etmək və vergitutma bazasının azaldılmasının qarşısını almaqdır.

Tədbirdə Avropa İttifaqının və müxtəlif ölkələrin səfirləri, Azərbaycan Respublikasının Vergilər Nazirliyinin, digər dövlət qurumlarının, Yunanıstan Milli gəlirlər üzrə müstəqil orqanının, Beynəlxalq və Avropa İqtisadi Hüquq Mərkəzinin nümayəndələri, ölkəmizdə həyata keçirilən digər "Tvinninq" layihələrinin rezident "Tvinninq" müşavirləri iştirak ediblər.

# Şirzad Abdullayev: Bu il veriləcək kreditlərin həcmi minimum 170 milyon manat olacaq



Bu ilin birinci rübündə Sahibkarlığa Kömək Milli Fondu tərəfindən müvəkkil kredit təşkilatları vasitəsilə ümumi dəyəri 357 milyon manat olan investisiya layihələrinin maliyyələşdirilməsi üçün 135 sahibkarlıq subyektinə 50 milyon manat güzəştli kredit verilib.

Bu barədə Sahibkarlığa Kömək Milli Fondunun icraçı direktoru Şirzad Abdullayev deyib.

İcraçı direktor qeyd edib ki, bu kreditlərdən istifadə etməklə investisiya layihələrinin reallaşdırılması 5145 yeni iş yerinin açılması imkanı yaradır. Verilmiş kreditlərin 74 faizi regionların, 26 faizi Bakının qəsəbələrinin payına düşür. Bu il veriləcək kreditlərin həcmi minimum 170 milyon manat təşkil edəcək.

Bundan başqa, İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondunun fəaliyyəti dövründə ümumi dəyəri 4,7 milyard manat olan investisiya layihələrinin maliyyələşdirilməsi məqsədilə 34 min 963 sahibkara 2,1 milyard manatdan çox güzəştli kredit verilib.

O, qeyd edib ki, bu kreditlər hesabına 160 minədək yeni iş yeri açılıb.

Kreditlərin 71 faizi aqrar sektorun, 29 faizi sənaye və digər sahələrin inkişafına yönəldilib. Bu kreditlərin 75 faizi regionların, 25 faizi Bakı qəsəbələrinin payına düşür. Maliyyələşdirilmiş layihələrin 93 faizini kiçik və orta həcmli kreditlər təşkil edir. İndiyədək verilmiş 2,1 milyard manat güzəştli kreditin 1 milyard manatı büdcə (47 faiz), 1,1 milyard manatı isə geri qaytarılan vəsaitlərin (53 faiz) payına düşür.

# Saltuk Düzyol: TANAP-ın iki fazası üzrə işlərin 93 faizindən çoxu tamamlanıb

TANAP layihəsinin iki fazası üzrə işlərin ümumilikdə 93 faizindən çoxu icra edilib. Bu il iyulun əvvəlindən etibarən TANAP-la Türkiyəyə kommersiya məqsədilə ilk qaz veriləcək.

AZƏRTAC-ın Əskişəhərə ezam olunmuş müxbiri xəbər verir ki, bu barədə TANAP-ın baş direktoru Saltuk Düzyol deyib.

O bildirib ki, uzunluğuna və diametrinə görə Cənub Qaz Dəhlizinin ən böyük hissəsi olan TANAP layihəsi üzrə işlər artıq son mərhələyə qədəm qoyub. TANAP-ın 56 düymlük 1350 kilometr uzunluğundakı hissəsinin inşası tamamlanıb, boru kəmərinə sınaq məqsədilə qaz vurularaq Əskişəhərə çatdırılıb. Bu hissədə boru kəməri marşrutu boyunca fiber-optik kabel də çəkilib.

Layihə üzrə Faza-0, yəni cari ilin ortalarında Türkiyənin "Botaş" şirkətinin sisteminə ilk qazın qəbul edilməsi üçün işlərin 99 faizi tamamlanıb. Faza-1, yəni 2019-cu ilin sonunda Türkiyədən keçməklə Avropaya təbii qazın verilməsi üçün nəzərdə tutulan işlər üzrə isə 80 faizdən çox irəliləyişə nail olunub. İlkin mərhələdə TANAP-la Türkiyəyə ildə 2 milyard kubmetr qaz veriləcək. Daha sonrakı 3 il ərzində bu həcm 6 milyard kubmetrə çatdırılacaq. Bundan başqa, TANAP-ın Dardanel boğazından keçən 36 düymlük 18 kilometr uzunluğundakı qoşa boru kəmərinin tikintisi və fiber optik kabelin dəniz altına döşənməsi işləri də artıq yekunlaşıb. Boru kəmərinin üzəri örtülərək mühafizə olunub. Xəttin quruya çıxdığı hər iki sahildə isə bərpa işləri görülüb.



Boru kəmərinin Əskişəhərin Seyitqazi bölgəsindəki CS5 kompressor və MS2 ölçmə stansiyalarının inşası tamamlanıb. Sistemə təbii qazın alınmasına başlanılıb.

TANAP-ın inşası çərçivəsində işlərin pik vaxtında layihə üzrə idarəetmə komandaları və podratçılar da daxil olmaqla tikinti sahələrində təxminən 9 min 200-dək işçi çalışıb. Layihə üzrə indiyədək 82 milyon nəfər-saat iş görülüb.

Qeyd edək ki, TANAP-ın səhmdarlarının bu layihədə payı belədir: "Cənub Qaz Dəhlizi" QSC - 51 faiz, STEAŞ - 7 faiz, "Botaş" - 30 faiz və BP şirkəti - 12 faiz.

# Стартап из Азербайджана представлен в финале конкурса “Seedstars Summit 2018”

Стартап из Азербайджана при организационной поддержке Центра инноваций и предпринимательства Barama, функционирующего при содействии компании Azercell Telekom и PASHA Bank, принял участие на конкурсе “Seedstars Summit” в городе Лозанна, Швейцария. 12 из 60 участников были отобраны в финал конкурса и получили возможность побороться за главный приз в 1.000.000 долларов США.




Азербайджан на конкурсе был представлен проектом “Wake Me Up”, который был объявлен победителем прошлогоднего национального отборочного турасредиАзербайджанскихстартапов. Отметим, что “Wake Me Up” – это новая и незаменимая технология, препятствующая засыпанию водителей за рулем при помощи специально разработанных очков. Принцип работы механизма заключается в следующем: устройство обработки, приняв сигнал от сенсора, способствует моментальному срабатыванию размещенных в очках звуковых и вибрационных сенсоров. Устройство заблаговременно выявляет наступающее засыпание, предотвращая возможные опасности.

Отметим, чтоSeedstarsявляетсясетьюкомпаний-Швейцарии, имеющихцельюположительно влиятьнажизньлюдей в развивающихсястранахпосредствомтехнологий и предпринимательства.

В настоящее время эта команда имеет доступ к предпринимателям, инвесторам, корпорациям и официальным лицам в более чем сотнистранахпутем выявления различных стартапов, учреждения компаний и внедрения программ ускорения. В этом году на конкурсе приняли участие более 75 стран из Азии, Африки, Европы. В рамках конкурса с участием влиятельных инвесторов, руководителей компаний состоялись панельные обсуждения, касающиеся вопросов здравоохранения, технологий, экологии, социальных сетей и иныхактуальных вопросов.

Для справки отметим, что Центр инноваций и предпринимательства Barama создан в 2009 году компанией Azercell с целью поддержки предпринимательства в Азербайджане. Центр Barama содействует, в частности, проектам в сфере информационных технологий, оказывая при этом поддержку также новым компаниям – стартапам - в процессе их становления в качестве независимых компаний.

# Ушел из жизни Чапай Султанов



*… Он сам бы назвал это неожиданным эндшпилем: совсем недавно, буквально месяц назад, haqqin.az поздравлял своего давнего автора и друга, известного ученого и шахматиста с днем рождения, ему пошел 83 год. И вот горестное сообщение: «Чапай Алиевич скончался…»*

**Чапай Султанов**

Не верится… Не верится еще и потому, что он был полон творческих планов, несмотря на тяжелый недуг, находил время и силы для шуток. Таким он был для всех, кто его знал, а знала его вся республика с того дня в середине 50-х, когда, как он сам говорил, «простой крепостной парень» впервые стал чемпионом Баку по шахматам.

А потом чемпионами становились его ученики, потому что неожиданно для всех он стал тренировать тех, кто «заболел» шахматной болезнью, а таких в то далекое время было много. То были дни, когда начиналась шахматная слава Азербайджана, и он, Чапай Султанов, был одним из тех, кто внес в это спортивное движение свою немалую лепту. Мало кто знает теперь, что параллельно с шахматными турнирами он работал над диссертациями – сперва кандидатской, потому докторской и с тем же поразительным успехом.

После защиты докторской диссертации за «разработку новых методов подсчета запасов нефти и газа» Ч.А. Султанов был удостоен звания лауреата Государственной премии.

В зените тренерской славы он оставил Бакинскую шахматную школу, основателем и бессменным руководителем которой он являлся много лет, чтобы проявить себя во вроде бы совершенно новом для него поприще – научной литературе и публицистике. За последние 10-15 лет из-под его пера вышла с десяток книг одна интересней другой.

Чего стоит, например, разошедшаяся огромным тиражом публицистическая история причин распада СССР «С меткой дьявола» (центральный персонаж Михаил Горбачев).

За сим последовало создание собственного сайта в интернете. При этом он находил время комментировать актуальные события в haqqin.az, коллектив которого высоко ценил его как эксперта по многим вопросам современной политики.

Коллектив нашего сайта глубоко опечален кончиной Чапая Султанова, выражает глубокое соболезнование родным и близким выдающегося нашего земляка, всем, кто его знал, любил и ценил.

**Allah rəhmət eləsin!**

Чапай Султанов скончался на 83-м году жизни 4-го апреля после продолжительной болезни.

На церемонии прощания с выдающимся ученым-публицистом присутствовали премьер-министр Азербайджана Артур Расизаде, ректор университета ADA Хафиз Пашаев, председатель парламентского комитета по экономической политике Зияд Самедзаде, ректор Академии Госуправления Урхан Алекперов и другие представители интеллигенции и общественности.



С прощальным словом на церемонии прощания выступили главный редактор информационно-политического портала haqqin.az Эйнулла Фатуллаев и председатель парламентского комитета по экономической политике Зияд Самедзаде.

После церемонии прощания Чапай Султанов был похоронен на Третьей аллее почетного захоронения.

**haqqin.az**

# Детский Паралимпийский Комитет расширяет деятельность при содействии Azercell



Комитет объединяет вокруг себя более 200 подростков ООО «Azercell Telekom», как и за всю свою 22-летнюю деятельность в Азербайджане, продолжает оказывать детям-сиротам и детям с различными проблемами регулярную помощь в обеспечении здорового образа жизни. Детский Паралимпийский Комитет, созданный в целях обеспечения интеграции подростков в общество и повышения их интереса к спорту, продолжает свою деятельность при поддержке Azercell, сплотив вокруг себя до 200 детей. Сегодня юные паралимпийцы могут заниматься в Детском Паралимпийском Комитете дзюдо, бочче, плаванием, голболом, настольным теннисом, танцами на инвалидных колясках, паратхэквондо, пауэрлифтингом и атлетикой. Число видов спорта в Комитете доведено до девяти. Наряду с подготовкой будущих спортсменов-паралимпийцев, Комитет оказывает детям поддержку также по вопросам образования и лечения. Так, несколько детей с нарушенной порно-двигательной системой отправлены в средние школы для прохождения инклюзивного обучения. Наряду с этим, наши паралимпийцы, завоевавшие многочисленные победы в международных турнирах, готовятся к IV Детским Паралимпийским Спортивным Играм. Комитет планирует провести IV Детские Паралимпийские Спортивные Игры в ноябре-декабре 2018 года. Отметим, что Детский Паралимпийский Комитет, действующий с 2014 года при поддержке компании Azercell, объединяет детей и подростков из различных регионов нашей страны. Основной целью Комитета является оказание содействия процессу интеграции детей с ограниченными возможностями здоровья в общество путем их абилитации и реабилитации, наряду с подготовкой резервных спортсменов.

# Компания “Opalus Partners” провела тренинг для студентов UNEC

13 апреля 2018 года учредитель компании “Opalus Partners” Чимназ Гасымова провела тренинг для студентов UNEC по теме «Управление Человеческими Ресурсами». Перед началом тренинга директор Центра Карьеры UNEC Фуад Алиев рассказал об успешном сотрудничестве с компанией “Opalus Partners”. Указав на полезность постоянно организуемых данной структурой тренингов на различные темы для студентов UNEC.



В ходе тренинга учредитель компании “Opalus Partners” Чимназ Гасымова представила студентам обширную информацию об управлении человеческими ресурсами и успешной карьере. Чимназ Гасымова отметила, что человеческие ресурсы являются одним из важных разделов входящих в структуру каждой организации, а подготовка специалистов по Человеческим Ресурсам и их профессиональная деятельность в каком-либо предприятии играет важную роль. На тренинге были затронуты вопросы постоянного использования методов в целях повышения мотивации работников. Также среди участников были проведены групповые занятия.

В заключении, Чимназ Гасымова, поделилась своими мыслями по поводу тренинга: «Студенты UNEC проявили большой интерес к тренингу. Полагаю, что они смогут воспользоваться полученными ими знаниями, как в период студенчества, так и в будущей трудовой деятельности».

По завершению тренинга, студентам принявшим участие в тренинге, были вручены сертификаты компании “Opalus Partners” .

# Bakcell выступает за достойную работу для всех и экономический рост

Первый оператор мобильной связи и ведущий провайдер мобильного интернета в Азербайджане – компания Bakcell является партнером радиопередачи «Глобальные Цели», выпускаемой ASAN Radio и представительством ООН в Азербайджане.

Очередной выпуск радиопередачи «Глобальные Цели» будет посвящен восьмой цели в области устойчивого развития, а именно, устойчивому экономическому росту, полной и производительной занятости и достойной работе для всех.

Данная «глобальная цель» призвана содействовать предоставлению возможностей людям для нахождения приносящей доход работы, обеспечивающей безопасные рабочие условия и социальную защиту членов их семей. В дополнение к этому, цель также охватывает перспективы для личного развития и социальной интеграции всех людей.

В передаче примут участие глава отдела маркетинга, связей с общественностью и международных отношений проекта ABAD Турана Гасымова, Менеджер проекта ПРООН«Устойчивое управление земельными и лесными ресурсами в ландшафте Большого Кавказа»Эльтекин Омаров а также ковродел Сурая Рзаева.

Радиопередача будет транслироваться на радиостанции ASAN Radio в 18:20, 16 апреля 2018 года. Повтор передачи можно будет прослушать 18 апреля (в 11:05) и 20 апреля (в 14:05) на ASAN Radio.

Основной целью цикла радиопередач «Глобальные Цели»является повышение уровня осведомлённости общества о «Целях в Области Устойчивого Развития», а также информирование общественности о проектах, осуществляемых для достижения планов на период до 2030 года, а также об ответственности, возлагаемой на различные структуры и граждан, в связи с обеспечением устойчивого развития.

При поддержке компании Bakcell, в апреле 2018 года на ASAN Radio (100 FM) будут выпущены в эфир 5 радиопередач.

Являясь одним из крупнейших инвесторов и работодателей не-нефтяного сектора Азербайджана – компания Bakcell способствует экономическому росту страны, инвестируя в своих работников, предоставляя им безопасные рабочие условия и обеспечивая социальную защиту их семей.

# Исследования ученых UNEC: «Совершенствование работ по страхованию сбережений»

Ученые UNEC успешно завершили очередной научно-исследовательский проект.

Ученые кафедры «Финансы и финансовые институты» UNEC подытожили очередные научно-исследовательские проекты. Согласно договору, заключенномумежду UNEC и Народным банком, они работали над двумя самостоятельными проектами. Первый проект был на тему «Современные проблемы диверсификации кредитного портфеля», а второй проект на тему «Совершенствование работ по страхованию сбережений».

Обе научно-исследовательские работы осуществлены под руководством заведующего кафедрой «Финансы и финансовые институты», доктора экономических наук, профессора, заслуженного преподавателя Авеза Алекберова.

Следует отметить, что эти проекты являются четвертой хозрасчетной научно-исследовательской работой, выполненной кафедрой «Финансы и финансовые институты» за последние два года.

Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən “Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi” layihəsi çərçivəsində çap olunub.

# DAVAMLI VƏ DAYANIQLI İNKİŞAF: KONSEPTUAL BAXIŞ MÜSTƏVİSİNDƏ

**Elə illər vardır ki, əsrlərə, qərinələrə bərabərdir. Söhbət bir xalqın, bir millətin, bir məmləkətin tarixində, taleyində, yüksəlişində silinməz izlər buraxan illərdən gedir. «Prezident İlham Əliyev: dinamik inkişafın 10 ili» iki cildliyini nəzərdən keçirərkən insana bu fikirlər təlqin olunur.**

*2003-2013-cü illəri əhatə edən bu 10 il Azərbaycanı ucalığa, zirvəyə aparan yolun həlledici məqamlarıdır. Bu dövr ərzində ölkənin iqtisadiyyatında, sosial-mədəni həyatında, dövlət quruculuğunda, siyasi sistemində, beynəlxalq nüfuzunda elə dəyişikliklər baş vermişdir ki, onları saymaqla qurtarmaq olmaz. Ulu öndər Heydər Əliyevin o vaxtlar İlham Əliyev haqqında dediyi bu sözlər öz real təsdiqini tapdı – «Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm». O, bu ümidləri şərəflə, ləyaqətlə doğrulda bildi…*

*2003-2013-cü illər ərzində ölkənin iqtisadi inkişaf dinamikasını əks etdirən statistik rəqəmlərə diqqət yetirdikdə görürük ki, bu müddət ərzində respublika iqtisadiyyatı 3,4 dəfə artmış, bank sektorunun aktivləri 24 dəfə artaraq 25 milyard manata yüksəlmişdir. Bu illər ərzində dövlət büdcəsinin gəlirləri 13 dəfə artmış, dövlət borcu ümumdaxili məhsulun cəmi 8 faizini təşkil etmişdir ki, bu da Avropa ölkələrinin dövlət borclarından 10-12 dəfə aşağıdır.*

Valyuta ehtiyatları dövlət borcunu 9 dəfəyədək üstələmişdir ki, bu da ölkənin iqtisadi inkişaf modelinin mükəmməl olmasından xəbər verir. Həmin dövrdə aparılan çoxşaxəli və sistemli islahatların nəticəsidir ki, ümumdaxili məhsulun əsas hissəsi qeyri-neft sektorunda formalaşmışdır. 10 il ərzində iqtisadiyyatın 3,4 dəfə artması ildə orta hesabla 13-14 faiz artım deməkdir. Azərbaycan bu cür yüksək inkişaf tempinə görə dünyada üç dövlət arasında özünə yer almışdır. Əgər 2003-cü ildə respublikada adambaşına düşən ümumdaxili məhsul 3150 dollar təşkil edirdisə, 2013-cü ildə həmin göstərici 11000 dollara çatmışdır. Bütün bunlar davamlı, dayanaqlı, eyni zamanda, tarazlı inkişafı təmin etmək üçün ölkədə həyata keçirilən maliyyə-büdcə, kredit, vergi siyasəti və digər tədbirlərin düzgün təşkili nəticəsində mümkün olmuşdur.

Cənab Prezident İlham Əliyevin bu illər ərzində yürütdüyü strateji xəttin təməlində daxili bazarın qorunması dayanmışdır. Azərbaycanın Dünya Ticarət Təşkilatına üzv olmamasının səbəbi bu amildən qaynaqlanır. Cənab prezident bu barədə danışarkən demişdir: «Bunun səbəbləri vardır və səbəblərdən ən birincisi yerli istehsalçıların müdafiəsidir, Azərbaycan bazarının qorunmasıdır. Mən bu gün də demək istəyirəm ki, Dünya Ticarət Təşkilatına üzv olacağıq, ancaq nə vaxt, onu biz bilirik. O vaxt ki, Azərbaycanda həm kənd təsərrüfatı, həm sənaye sahəsində ixracyönlü məhsullar üstünlük təşkil edəcəkdir, o vaxt biz Dünya Ticarət Təşkilatına üzv olacağıq və baxarıq, görərik o vaxt bizi belə təkidlə oraya dəvət edəcəklər, yoxsa yox»…

2003-2013-cü illərdə Azərbaycan Prezidenti İlham Əliyevin uğurla həyata keçirdiyi dövlət siyasətində neft-qaz sənayesinin perspektiv inkişaf məsələləri xüsusi önəm kəsb etmişdir.

Təməli 1994-cü ildə ulu öndər Heydər Əliyev tərəfindən qoyulan «Əsrin müqaviləsi»ni yeni tələb və çağırışlar fonunda inkişaf etdirib zənginləşdirmək missiyası cənab İlham Əliyevin üzərinə düşmüş və o, bu missiyanı mükəmməl ölçü-biçimdə gerçəkləşdirə bilmişdir.

Tarixi əhəmiyyətinə görə Azərbaycan üçün «Əsrin müqaviləsi» qədər böyük önəm kəsb edən daha bir hadisə 2013-cü ilin dekabr ayının 17-də baş tutmuşdur. Məhz həmin gün Bakıda Heydər Əliyev Mərkəzində «Şahdəniz-2» layihəsi üzrə yekun investisiya qərarının imzalanması mərasimi keçirilmiş və layihənin icrasına başlanılmışdır. Hazırda sürətlə icra olunan bu layihə Azərbaycan və Gürcüstan ərazisi boyunca Cənubi Qafqaz boru kəmərinin genişləndirilməsinə xidmət etməklə Trans-Anadolu (TANAP) və Trans-Adriatik (TAP) qaz boru kəmərlərinin tikintisini nəzərdə tutur. 3500 kilometr məsafədə nəql olunacaq mavi yanacaq Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, İtaliya və Balkan ölkələrində milyonlarla istehlakçının tələbatını təmin edəcəkdir. Belə bir layihənin reallaşması Azərbaycanın uzunmüddətli və dayanıqlı inkişafını təmin etməklə yanaşı, region ölkələrinin inkişafına da böyük təkan verəcəkdir.

Azərbaycan, həmçinin beynəlxalq nəqliyyat sistemində mühüm mövqeyə malikdir. Şərq-Qərb dəhlizində həlledici xətt olan, 2007-ci ilin noyabrın 21-də təməli qoyulan, Pekin şəhərini London şəhəri ilə bağlayan Bakı-Tbilisi-Qars dəmir yolunun 2017-ci ilin oktyabr ayının 30-da açılışı olmuşdur. Bu dəmir yolu xətti həm də Afrikanın Avrasiya məkanına çıxışını təmin edəcək. Dünyanın 4 qütbünü, üç qitəsini bir-birinə birləşdirən bu layihə Azərbaycanı dünyanın mühüm paylayıcı qovşağına çevirəcəkdir. Burada bir məsələni qeyd etmək yerinə düşərdi ki, hər hansı bir ölkə təbii sərvətlərlə zəngin ola bilər, lakin bu imkandan lazımi səviyyədə faydalana bilməz. Əsas məsələ odur ki, həmin sərvətlərin dünya bazarlarına çıxışı təmin edilsin, etibarlı tərəfdaşlar tapılsın. Bu məsələni Azərbaycan dövləti milli mənafelərə uyğun şəkildə həll edə bilmişdir. İkinci vacib bir məqam neft gəlirlərinin dövlətin strateji hədəflərinə uyğun istiqamətlərə yönəldilməsidir. Hər iki məsələnin müsbət həlli Azərbaycanın hərtərəfli inkişafı və tərəqqisinə, bugünkü səviyyəyə gəlib çatmasına imkan və şərait yaratmışdır. Neft gəlirlərinin düzgün yerləşdirilməsi qısa zaman kəsiyində ölkədə bazar iqtisadiyyatının prinsiplərinə keçidin tam şəkildə təmin olunmasına, liberal iqtisadiyyatın təşəkkül tapıb formalaşmasına gətirib çıxarmışdır. Bir-birinin ardınca reallaşdırılan Dövlət Proqramları regionların sosial-iqtisadi inkişafını təmin etmiş, ölkənin sosial, yol-nəqliyyat, enerji infrastrukturunu köklü şəkildə dəyişmiş, yəni istehsal və emal müəssisələrinin yaradılması ilə sonuclanmışdır.

Ümumilikdə, götürdükdə hər bir ölkənin inkişaf və yüksəliş səviyyəsi üç meyarla ölçülür: insan kapitalı, sənaye potensialı və təbii sərvətlər. İqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə insan kapitalı 76 faiz, sənaye kompleksi 19 faiz, yalnız 5 faiz təbii sərvətlər təşkil edir. Bu reallığı yaxşı dərk edən cənab İlham Əliyev neft kapitalını insan kapitalına keçirmək yolunu strateji hədəf seçmiş və bu hədəfə doğru inamlı addımlar atmışdır.

*Azərbaycanın informasiya-kommunikasiya infrastrukturuna malik ölkəyə çevrilməsi prosesi gedir. On il ərzində Azərbaycanda İKT sektorundan əldə olunan gəlirlərin artımı dünyada bu sahədə olan artımdan 2,5-3 dəfə çoxdur. Azərbaycan ərazi və əhalisi etibarilə kiçik ölkə sayılır. Lakin buna baxmayaraq, öz süni kosmik peykini orbitə çıxarmaqla inkişaf etmiş ölkələr sırasında özünə yer almışdır. İKT sənayesində əsas kapitala investisiya qoyuluşu 2003-cü ildən 2013-cü ilə kimi 3 dəfədən çox, avadanlıqların idxalı 3,4 dəfə, xidmət və məhsulların istehsalı 3,5 dəfə artmışdır. Bütün bu tədbirlərin görülməsi sonucda «Elektron hökumət»in qurulmasına gətirib çıxarmışdır. «Elektron hökumət» konsepsiyasının ardıcıl surətdə həyata keçirilməsi, Azərbaycan brendi olan «ASAN»-ın bütün regionlarda yaradılması və digər layihələrin gerçəkləşdirilməsi konkret dövlət proqramları əsasında həyata keçirilmişdir.*

*2003-2013-cü illərdə Azərbaycanda elektrik enerjisi istehsalında ənənəvi, həm də alternativ və bərpa olunan mənbələrdən istifadə edilmiş, ən mütərəqqi texnologiyaların tətbiqinə başlanmışdır. Bu, artan iqtisadiyyatın tələbatını ödəməklə ölkənin inkişaf və tərəqqisinə geniş imkanlar açmışdır. Həmin dövr ərzində ölkədə 17 yeni elektrik stansiyasının tikilməsi nəticəsində 2300 meqavatdan artıq həcmdə generasiya gücləri istismara verilmiş və respublikanın ümumi generasiya gücü 6300 meqavata çatdırılmışdır. Eyni zamanda, 10 min kilometrdən çox elektrik verilişi xətləri və 1550-dən çox yarımstansiya tikilmiş və yenidən qurulmuşdur.*

*On il ərzində aqrar sektorda həyata keçirilən islahatlar nəticəsində kənd təsərrüfatının idarə edilməsində əsaslı dəyişikliklər baş vermiş, mülkiyyət münasibətlərinin davamlı inkişafı təmin edilmiş, azad sahibkarlığın yeni tələb və çağırışlar fonunda qurulmasına hərtərəfli şərait yaradılmışdır. Məhz 2003-2013-cü illərdə aparılmış təsirli və genişmiqyaslı islahatlar nəticəsində kənd təsərrüfatında yeni sahələr formalaşmış, fərqli münasibət və mexanizmlər yaradılmışdır. Nəticədə, bu dövrdə kənd təsərrüfatı məhsulları istehsalının həcmi 3,3 dəfə artmışdır. Aqrar sektorun mühüm bölməsi olan bitkiçilikdə əkin sahələrinin həcmi 64,2 min hektar artırılmış, əsas bitki növləri üzrə yüksək məhsuldarlığa nail olunmuşdur. Görülən tədbirlər nəticəsində 10 il ərzində bitkiçilik məhsulları istehsalı 3 dəfə, heyvandarlıq məhsulları istehsalı 3,8 dəfə artmışdır. Bu illər ərzində aqrar sektorda yaradılan güclü təməl sonrakı böhranlı illərdə geriləmə və tənəzzül meyillərinin yaranmasına yol verməmişdir.*

Cənubi Qafqaz iqtisadiyyatında dörddə üç paya malik olan Azərbaycan bu gün regional lider, bir sıra qlobal layihələrin əsas oyunçusudur. O, beynəlxalq aləmdə nüfuz və hörməti durmadan artan bir ölkədir. Bütün bunların kökündə ulu öndər Heydər Əliyevdən miras qalmış işıqlı yolun və strategiyanın ölkə başçısı tərəfindən böyük məharətlə və məsuliyyətlə davam etdirilməsi dayanır.

Hələ 2003-cü ildə keçirilən seçkilərdən sonra cənab İlham Əliyev vurğulamışdır ki, ulu öndərin siyasəti davam etdiriləcək, Azərbaycan xalqının maraqlarını ifadə edən bu siyasi xətt yeni şəraitə uyğun şəkildə, yəni keyfiyyət çalarları və böyük inamla həyata keçiriləcəkdir. Bu gün bizi həmin tarixdən təxminən 15 il ayırır. İlham Əliyev Azərbaycan xalqının yekdil rəyi və iradəsi ilə yenidən prezident seçildi. Bu, deyilən sözün, verilən vədin işdə və əməldə əsl təcəssümüdür!

**Zülfü İLYASOV,**
**«İqtisadiyyat» qəzeti**




## Kredit əldə etmək üçün kosmosu yenidən kəşf etməyə ehtiyac yoxdur




Kredit almaq çox vaxt aparan məsələdir? Çox sənəd tələb olunur? Komissiya və faizlər yüksəkdir? Bu sualların heç biri ilə AtaBankda qarşılaşmayacaqsınız.

AtaBank müştərilərinə ən az sənəd tələbi ilə və çox əlverişli şərtlərlə Ekspress kreditini təklif edir.

Artıq yalnız rəsmi iş yerindən arayış təqdim etməklə qısa müddətdə 5000 manatadək kredit əldə etmək mümkündür.

Həmçinin, təqaüdçülər də kart hesabından çıxarış təqdim etməklə Ekspress kreditdən yararlana bilər.

Xatırladaq ki, “AtaBank”ın digər çox sərfəli Klassik, Lombard və Avtomobil kredit məhsulları da mövcuddur. Ən əsası isə “AtaBank”dan kredit kartı əldə edən müştərilər dünyanın istənilən yerində bu kartlardan istifadə etmək imkanı əldə edirlər.

## ETİBARSIZDIR

“Günay Sığorta” ASC-yə məxsus EEI – A0025/17 saylı elektron cihaz üzrə sığorta şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.

Bağırova Nəsibə Yaqub qızının adına Sabunçu rayonu Ləhiş bağ massivində 1341 №li sahənin icarəyə verilməsinə dair 02 iyul 1987-ci il tarixili 12995 saylı müqavilə itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, akademik Ziyad Səmədzadə Milli Məclisin deputatı
**ASTAN ŞAHVERDİYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, akademik Ziyad Səmədzadə görkəmli alim
**ÇAPAY SULTANOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN!**

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Cahangir Qocayev, Abbas Əliyev

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: 566 09 60
Faks: 514 14 27
Mühasibatlıq: 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. “İQTİSADİYYAT” qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, “Azərmedia” MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 2500